RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 141 (8734) CÜMƏ, 9 iyul 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Yeni iqtisadi rayonlar ölkəmizin gələcək inkişafı üçün yeni imkanlar açır

## Prezident İlham Əliyevin imzaladığı fərmanla həm də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunduğu növbəti dəfə təsdiqləndi

Məlum olduğu kimi, Prezident İlham Əliyev cari il iyulun 7-də "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərman imzalayıb. Bu, dövlət başçısının uzaqgörən iqtisadi və siyasi strategiyasının daha bir təzahürü, respublikada həyata keçirilən sosial-iqtisadi islahatların davamına yönəldilən bir addımdır.

Artıq 18 ilə yaxındır icra edilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramları nəticəsində ölkəmizin hər bir şəhər, rayon, kənd və qəsəbəsi yaxşı mənada tanınmaz olmuş, regionların iqtisadi gücü artmış, biznes və investisiya mühiti yaxşılaşmışdır. Çoxsaylı və çoxşaxəli infrastruktur layihələri gerçəkləşdirilmişdir. Nəticədə insanların rifah halı yüksəlmişdir. Bir sözlə, ardıcıl və məqsədyönlü islahatlar ölkənin iqtisadi və hərbi-müdafiə qüdrətini artırmış, 44 günlük Vətən müharibəsində düşmən üzərində şanlı qələbə qazanılmasına təkan vermişdir.

Fərmanda da qeyd edildiyi kimi, hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qarşıda həmin ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılması məqsədi dayanır. Odur ki, əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılması gündəmə gəlir.

Beləliklə, ölkədə 1991-ci ildən tətbiq olunan bölgü dəyişdirilir. Xatırladaq ki, indiyədək 10 iqtisadi rayon - Abşeron, Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Aran, Gəncə-Qazax, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın, Lənkəran, Naxçıvan - müəyyənləşdirilmişdi. Yeni bölgüyə əsasən, 14 iqtisadi rayon yaradılır. Bu bölgüdə Bakı iqtisadi rayonunu Bakı şəhəri təşkil edəcək. Naxçıvan iqtisadi rayonuna Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları daxil olacaq.

Abşeron-Xızı iqtisadi rayonunu Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları, Dağlıq Şirvan iqtisadi rayonunu Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları, Gəncə-Daşkəsən iqtisadi rayonunu Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları əhatə edəcək.

Qarabağ iqtisadi rayonunu Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları, Qazax-Tovuz iqtisadi rayonunu Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları, Quba-Xaçmaz iqtisadi rayonunu Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları, Lənkəran-Astara iqtisadi rayonunu Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları təşkil edəcək.

Ardı 4-cü səh.

## Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Uzun illərdir ki, Azərbaycanda yaşayan ayrı-ayrı xalqlar və dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan yüksək birgəyaşayış mədəniyyəti, dostluq və qardaşlıq mühiti hökm sürür. Dünyada nümunəvi tolerantlıq məkanına çevrilmiş ölkəmizdə multikultural dəyərlərin daha da inkişaf etdirilməsi, habelə etnik-dini müxtəlifliyin qorunması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Dövlət-din münasibətlərinin davamlı olaraq təkmilləşməsi, tolerantlıq və mədəni müxtəliflik ənənələrinin təbliği cəmiyyətin mənəvi zənginləşməsinə, dost və qarşılıqlı anlaşma münasibətlərinin möhkəmlənməsinə xidmət edir.

Ölkədə mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2,0 (iki) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 150,0 (yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 150,0 (yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 150,0 (yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 100,0 (yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2021-ci il*




## Çempionluq görüşü: İtaliya-İngiltərə

DÇ-2018-də də yarımfinala çıxan İngiltərə millisi Danimarka səddini adlamaqla Avropa çempionatlarında ən yüksək nəticəsinə imza atmaq istəyirdi. Bu zaman ingilislərin Danimarka ilə qarşılaşmaya qədər cari turnirdə qapılarından top buraxmadan irəliləmələri də diqqət çəkirdi.

Ardı 7-ci səh.



**Yarımfinal**

**İngiltərə - Danimarka - 2:1**
**Qollar:** Damsqaard, 30 (0:1), Kyer, 39-avtoqol (1:1), Keyn, 104 (2:1)
**Baş hakim:** Danni Makkeli (Niderland)
**London. "Uembli" stadionu**

## XXIV Avrasiya İqtisadi Zirvə Toplantısının iştirakçılarına

Hörmətli sammit iştirakçıları!

Sizi səmimi-qəlbdən salamlayır və "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə gerçəkləşdirilən növbəti Avrasiya İqtisadi Zirvə Toplantısının öz işinə başlaması münasibətilə təbrik edirəm.

Avrasiya iqtisadi zirvə toplantıları uzun illərdir uğurla sülh və dialoqu təşviq edir, qloballaşma dövründə yeni çağırışların müzakirə edildiyi bir platforma kimi Avrasiya regionunda əməkdaşlığın inkişafına hər zaman dəyərli töhfələr verir. Builki sammit "İnsanlık daha iyisini hak ediyor" (Bəşəriyyət daha yaxşısına layiqdir) devizi altında keçirilir və bunun da böyük rəmzi mənası var. Bəşəriyyətin rifahı, qlobal miqyasda bütün maraqların və siyasətlərin mərkəzində insan amilinin dayanması, insanların layiq olduğu bir dünyada yaşaması üçün bu gün hər birimiz məsuliyyət daşıyırıq. Pandemiya ilə bərabər dünyamız hazırda iqlim dəyişikliyindən irəli gələn çağırışlar, qlobal təhlükəsizliyə təhdid yaradan bir sıra risklərlə üz-üzədir. Bütün bu problemlər qlobaldır və onların həlli də yalnız qlobal əməkdaşlıqla mümkündür. İnsanlığı təhdid edən problemlər üzərində birgə çalışma, ədalətin təmini, regional əməkdaşlıq, bərabərsizliyin aradan qaldırılması yeni geosiyasi nizamın da başlıca şərtidir.

Azərbaycan Cənubi Qafqazda geosiyasi və geoiqtisadi reallığı köklü surətdə dəyişməklə əməkdaşlığa, sülhə, regional və qlobal miqyasda dayanıqlı təhlükəsizlik sisteminin yaradılmasına istiqamətlənmiş strateji kurs həyata keçirir. İnsanlıq əleyhinə törədilmiş cinayətlərə, işğala son qoyan və regionda böyük inkişafa yol açan bu prosesdə qardaş Türkiyə bizə hər zaman yüksək dəstək verdi. Vətən müharibəsində qələbəmiz və hazırkı proseslər Azərbaycan-Türkiyə qardaşlığının, sarsılmaz birliyinin nailiyyətləridir. Ən önəmlisi isə hər iki ölkənin özü üçün bir dəyərə çevirdiyi ədalət və inkişafın qələbəsidir. Yeni geosiyasi reallığın ən böyük təntənəsi isə Şuşa Bəyannaməsidir. Bu tarixi sənəd Azərbaycanla Türkiyə arasında qardaşlıq, dostluq, tərəfdaşlıq münasibətlərini müttəfiqlik statusunda rəsmiləşdirdi. Bu təhlükəsizlik və sülhə yüksək zəmanət sənədi Cənubi Qafqaz daxil olmaqla bütövlükdə Avrasiya üçün strateji əhəmiyyət daşıyır. Azərbaycan və Türkiyə regionun resurslar, kommunikasiya və logistika potensialından səmərəli istifadəyə imkan yaradan, hər kəs üçün faydalı, firavan, layiqli gələcəyin qurulması naminə inamla birgə addımlayır. Ölkələrimizin enerji təhlükəsizliyinin təminatındakı qlobal rolu da Avrasiyada davamlı əməkdaşlıq və xalqların rifahı üçün möhkəm təməl olaraq qalacaqdır.

İnanıram ki, bu toplantıda aparacağınız müzakirələr bəşəriyyətin rifahı naminə əməkdaşlıq üçün yeni perspektivlərin müəyyənləşməsində faydalı olacaqdır.

Zirvə Toplantısının işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2021-ci il*

## Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi davam edir



Bu yol həm də strateji əhəmiyyəti ilə seçilir. Çünki sözügedən yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

Ardı 4-cü səh.

## Uğurlu siyasətin nəticəsi

Azərbaycanın Ağdamdan sonra Füzuli və Zəngilan rayonlarının da minalanmış ərazilərinin xəritəsini alması diplomatiyamızın növbəti uğurudur. Bunun müqabilində Qarabağda yenidənqurma və qayıdış layihələrinin gerçəkləşdirilməsi sürətləndiriləcək. 30 ilə yaxındır ki, doğma yurduna həsrət qalmış insanların öz yurdlarına daha tez qayıdışı təmin ediləcək. Mina xəritələrinin alınması həm də mühüm strateji əhəmiyyət daşıyır.

Əldə olunan nəticə həm də ölkəmizin prinsipial mövqeyinin göstəricisidir. Bütün platformalarda Azərbaycan torpaqlarının minalanması məsələsinin qaldırılması, beynəlxalq ictimaiyyətdən bu məsələyə münasibət bildirməsi tələbi, Ermənistanın antihumanist siyasətdən imtina etməsinə yönələn çağırışlar bu nailiyyətin əldə olunmasına zəmin yaratdı. İndi bütün dünyada mina xəritələrinin qaytarılmasını Azərbaycan dövlətinin siyasi uğuru kimi qəbul edirlər. Bu fəaliyyətin nəticəsidir ki, Ermənistan artıq Azərbaycanla münasibətləri tənzimləməyi özü üçün yeganə çıxış yolu kimi dərk edir.

Bir vaxtlar ermənilər müxtəlif bəhanələr gətirərək həmin xəritələri Azərbaycana verməkdən imtina edirdilər. Məqsədləri də bu idi ki, daha çox azərbaycanlı minaya düşsün. Onların bu istəyi Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasəti, diplomatik səyləri nəticəsində iflasa uğradı.

Ardı 3-cü səh.

## Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarına diplomatik rütbələrin verilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının aşağıdakı əməkdaşlarına diplomatik rütbələr verilsin:

**ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi**

Abdullayeva Leyla Yaşar qızı
Həbibzadə Elcan İbrahim oğlu
Rəfiyev Yalçın İlqar oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2021-ci il*

## Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarının təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Diplomatik xidmətdə fərqlənməyə görə" medalı ilə**

Abduləzimov Elşən Səməd oğlu
Allahverdiyev Elçin Hüseyn oğlu
Aslanov Azad Xanlar oğlu
Cabbarov Abbas Hüseyn oğlu
Cəfərov Sədi Rasim oğlu
Əşrəfzadə Elvin Ülfət oğlu
Hüseynova Aygün Əbülfəz qızı
Hüseynova Nigar Ramiz qızı
Qasımov Mahur Hafiz oğlu
Məmmədov Eldar Həsən oğlu
Məmmədova Hüsniyyə Rafael qızı
Soltanov Fərid Rafael oğlu
Şahyarov Şahin Arzuman oğlu
Yaqubova Aysel Şakir qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2021-ci il*

## Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının növbəti iclası keçirilib





İyulun 8-də Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Müşahidə Şurasının sədri Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasda Holdinqin Baş icraçı direktoru Ruslan Əlixanovun cari ilin birinci yarımilində görülmüş işlər barədə hesabatı dinlənilib. Həmçinin Holdinqin idarəetməsinə verilmiş portfel şirkətlərin - "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı", "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" və "AzerGold" QSC-lərin diaqnostikasının nəticələri və digər cari məsələlər müzakirə olunub.

## Azərbaycanın mədəniyyət naziri Gürcüstanın Bas naziri ilə görüşüb

Azərbaycanın mədəniyyət naziri Anar Kərimov Gürcüstana səfəri çərçivəsində bu ölkənin Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Baş nazir Azərbaycanın mədəniyyət nazirinin rəhbərlik etdiyi nümayəndə heyətini salamlamaqdan məmnunluğunu bildirib. Qeyd edib ki, Gürcüstan ilə Azərbaycan bölgədə çox səmərəli əməkdaşlıq edirlər. Bu əməkdaşlığın inkişaf etdirilməsi Gürcüstan üçün böyük əhəmiyyət daşıyır.

Anar Kərimov da öz növbəsində Azərbaycan və Gürcüstan arasındakı mədəni və humanitar sahələr üzrə əməkdaşlıq məsələlərinin diqqət mərkəzində olduğunu bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

## Prezident Administrasiyasının rəhbəri Avropa İttifaqının Qonşuluq və Genişlənmə üzrə Komissarı ilə görüşüb



İyulun 8-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev ölkəmizdə səfərdə olan Avropa İttifaqının Qonşuluq və Genişlənmə üzrə Komissarı Oliver Varhelyi ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında müxtəlif sahələr üzrə əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olunub, Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğu bildirilib.

Avropa İttifaqı ilə Azərbaycan arasında nəqliyyat, yaşıl enerji, rəqəmsal texnologiyalar, elm, təhsil və digər sahələr üzrə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb. İşğaldan azad edilmiş ərazilərdə minalardan təmizləmə, bərpa və yenidənqurma işlərində Avropa İttifaqının Azərbaycanı dəstəkləməyə hazır olduğu vurğulanıb.

Görüşdə TAP layihəsinin əhəmiyyəti qeyd olunaraq Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın mühüm rol oynadığı bildirilib.

## *Oliver VARHELYİ:* "Avropa İttifaqı regionda sülhə töhfə verməyə hazırdır"



"Azərbaycan öz tolerantlığı, din-dövlət münasibətləri baxımından dünyada nadir dövlətdir. Ölkəmizdə dinə və dindarlara xüsusi dövlət qayğısı var. Burada bütün dinlərə mənsub insanlar təhlükəsiz şəraitdə yaşayırlar".

AZƏRTAC xəbər verir ki, bu sözləri Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə iyulun 8-də Avropa İttifaqının (Aİ) Qonşuluq və Genişlənmə üzrə Komissarı Oliver Varhelyi ilə görüşündə deyib. Qarabağın erməni işğalından azad olunmasından danışan QMİ sədri qeyd edib ki, azad edilmiş torpaqlardakı 67 məsciddən 65-i dağıdılıb. Məscidlərimiz tövlə kimi istifadə edilib. Lakin Azərbaycan Prezidenti İlham Əliyev bütün maddi-mədəniyyət nümunələri kimi, məscidlərin və digər dinlərə məxsus məbədlərin də təmir olunması barədə göstəriş verib.

Erməni katolikosunun həqiqətə uyğun olmayan bəyanatlar verdiyini, kilsələrin guya dağıdıldığı ilə bağlı şayiələrin yayıldığını təəssüflə bildirən Allahşükür Paşazadə qeyd edib ki, bütün bunlar yalandır və erməni şovinizminin növbəti göstəricisidir.

Azərbaycan-Avropa İttifaqı əlaqələrindən danışan Oliver Varhelyi bildirib ki, Aİ ölkəmizlə münasibətlərin uğurla davam etdirilməsi prinsipinə sadiqdir. "Azərbaycanla əlaqələrimizi daha da genişləndirməkdən çox şad olarıq. Biz Avropa İttifaqı olaraq regionda sülhə töhfə verməyə hazırıq. Bizim də bu işə köməyimiz dəyərsə, məmnun olarıq", - deyə Aİ nümayəndəsi qeyd edib.

Azərbaycandakı dini konfessiyaların rəhbərləri tədbirdə çıxış edərək ölkəmizdə hökm sürən tolerant mühitdən danışıb, dövlətin müxtəlif dinlərə mənsub vətəndaşlara eyni diqqət və qayğı ilə yanaşdığını vurğulayıblar.

## Zəngilanlı məcburi köçkünlər Almaniyanın "CRONIMET" şirkəti ilə bağlı tədbir görülməsi üçün bu ölkənin Azərbaycandakı səfirinə müraciət ediblər

Zəngilan rayonundan olan məcburi köçkünlər Almaniyanın "CRONIMET" şirkəti ilə bağlı tədbir görülməsi üçün bu ölkənin Azərbaycandakı səfiri Volfqanq Maniqə müraciət ediblər.



AZƏRTAC müraciəti təqdim edir.

"Biz, Zəngilan rayonundan olan məcburi köçkünlər sizə doğma yurd yerimizdə Ermənistanın işğalı zamanı törədilən ekoloji terrorla əlaqədar müraciət edirik. Biz 30 ilə yaxın müddətdə Azərbaycanın müxtəlif şəhər və rayonlarında müvəqqəti məskunlaşmışıq. Bir an da olsa doğma yurd-yuvamıza qayıdacağımıza inamımızı itirməmişik. Ötən ilin sentyabrında Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu işğal altındakı ərazilərimizi, o cümlədən bizim məcburi köçkün düşdüyümüz Zəngilan rayonunu işğaldan azad edib.

Qazandığımız Qələbə böyükdən-kiçiyə hər birimizdə böyük ruh yüksəkliyi yaratdı, tezliklə əvvəlki yaşayış yerlərimizə qayıdacağımız günü gözləyirik. Amma Zəngilanın ekoloji terrora məruz qalması bizdə məyusluq yaradır. Zəngilanlılar Oxçuçaydan həm suvarma, həm də ətrafında istirahət etmək, orada balıq tutmaq üçün istifadə ediblər. İndi Ermənistanın çayın mənbəyində yerləşən Qacaran mis-molibden, Qafan mis saflaşdırma kombinatlarının toksik tullantıları, eyni zamanda, həmin şəhərlərin məişət-çirkab suları təmizlənmədən birbaşa Oxçuçaya axıdılır. Ermənistanda mədənçıxarma sahəsi üzrə fəaliyyət göstərən Almaniyanın "CRONIMET" şirkəti ekostandartlara riayət etmir, nəticədə yalnız Zəngilan rayonu üçün deyil, ətraf regionlar üçün də ekoloji terror təhlükəsi yaranır.

Yaranmış problem çaydan suvarma məqsədilə istifadəni qeyri-mümkün edir, balıqlar kütləvi şəkildə məhv olur. Biz - 30 ilə yaxın bir müddətdə yurd həsrəti ilə yaşayan zəngilanlılar ata-baba torpaqlarımızda törədilən bu terrorun dayandırılmasını tələb edirik. Ekoloji standartlar ölkəsi olan Almaniyanı digər ölkələr üçün təhlükəli vəziyyətin yaranmasına səbəb olan "CRONIMET" şirkətinə qarşı təcili tədbir görməyə çağırırıq.

Biz - bu müraciəti imzalayan zəngilanlılar "CRONIMET" şirkətinin fəaliyyətinin təcili dayandırılmasını tələb edirik. Əks halda, ekoloji terror törədən təşkilat və Almaniya ilə əlaqədar beynəlxalq məhkəmələrə müraciət edəcəyik".

Qeyd edək ki, məktubu Zəngilanın erməni silahlı birləşmələri tərəfindən işğalı nəticəsində rayondan didərgin düşmüş 100-dən çox məcburi köçkün imzalayıb.

## FHN-in nümayəndəsi MDB fövqəladə hallar üzrə Dövlətlərarası Şurasının XXXIII iclasında iştirak edib

Qırğız Respublikasının paytaxtı Bişkekdə Müstəqil Dövlətlər Birliyinin (MDB) təbii və texnogen xarakterli fövqəladə hallar üzrə Dövlətlərarası Şurasının XXXIII iclası keçirilib.





Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda FHN-in Regional mərkəzlərlə işin təşkili, layihələrin idarə edilməsi və təhsil məsələləri üzrə Baş idarəsi rəisinin müavini Gündüz Həmzəyev iştirak edib. Azərbaycanla yanaşı, tədbirə Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın aidiyyəti dövlət qurumlarının nümayəndələri və MDB İcraiyyə Komitəsinin məsul işçiləri, qonaq qismində isə Ümumdünya Mülki Müdafiə Təşkilatının rəhbər şəxsləri qatılıb.

İclasda MDB-nin təbii və texnogen xarakterli fövqəladə hallar üzrə Dövlətlərarası Şurasının 2019-2020-ci illərdə gördüyü işlərə dair məruzə dinlənilib. Şuranın İcraiyyə Komitəsi gələcək planlar barədə məlumat verib, müzakirələr aparılıb.

Gündüz Həmzəyev iclasda çıxış edərək Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının apardığı 44 günlük haqq savaşından, rəşadətli Ordumuzun qazandığı böyük Zəfərdən danışıb, işğaldan azad olunmuş torpaqlarımızda görülən quruculuq işləri və ərazilərin minalardan təmizlənməsi sahəsində həyata keçirilən tədbirlər barədə məlumat verib. O, çıxışında FHN-in Dövlətlərarası Şuranın sonuncu iclasından sonra gördüyü işlərdən danışıb.

İclasda MDB-nin təbii və texnogen xarakterli fövqəladə hallar üzrə Dövlətlərarası Şurasına sədrliyin növbəlilik prinsipi üzrə Rusiya Federasiyasından Qırğız Respublikasına keçməsi barədə qərar qəbul edilib. Səfər çərçivəsində iclas iştirakçıları Qırğız Respublikası Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin və dalğıc qrupunun fəaliyyəti ilə tanış olublar.

## *Aİ Komissarı:* "Azərbaycan bölgədə pandemiyadan minimum zərərlə çıxan ölkədir"

Bu, mənim Azərbaycana ilk səfərimdir və səfər çərçivəsində münasibətlərimizə yeni təkan verdik. Səfər çərçivəsində keçirdiyim görüşlərdə müzakirə etdiyimiz Azərbaycan hökuməti ilə İqtisadi və İnvestisiya Planı postpandemiya dövründə regiona dəstək göstərmək baxımından çox faydalı olacaq. Bu plan ortaq fəaliyyətin nəticəsidir. Region ölkələrinin sosial və iqtisadi cəhətdən daha güclü olması üçün bu plan reallaşdırılacaq və biz bu planla regionda iqtisadi, sosial inkişafa təkan verə biləcəyik.



AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycana səfərini başa vuran Avropa İttifaqının (Aİ) Qonşuluq Siyasəti və Genişlənmə danışıqları üzrə Komissarı Oliver Varhelyi keçirdiyi mətbuat konfransında bildirib.

O deyib: "Azərbaycan bölgədə pandemiyadan minimum zərərlə çıxan ölkədir. Azərbaycan iqtisadi cəhətdən inkişaf etmiş və güclü ölkədir. Ona görə də biz əsas diqqəti iqtisadi və sosial sahələrə yönəltmişik. Bununla yanaşı, digər sahələrdə də əməkdaşlığı möhkəmləndirmək niyyətindəyik".

Ələt Beynəlxalq Dəniz Ticarət Limanında olduğunu bildirən Oliver Varhelyi deyib ki, bu liman Şərq-Qərb nəqliyyat marşrutu üçün mühüm əhəmiyyətə malikdir. Bu limanın yaşıl iqtisadiyyata keçməsi, elektronlaşdırılması ilə bağlı təkliflər vermişik. Azərbaycan enerji sahəsində Avropa İttifaqı üçün önəmli tərəfdaşdır.

Səfər çərçivəsində keçirdiyi görüşlərdə Qarabağ münaqişəsini də müzakirə etdiklərini və Aİ-nin uzunmüddətli və dayanıqlı sülhün əldə olunması üçün dəstək verəcəyini bildirən Aİ-nin komissarı deyib: "Aİ münaqişədən sonra regionda daha uzunmüddətli və dayanıqlı sülhün əldə olunmasına dəstək verəcək. Artıq tərəflər saxlanılanların azad olunması və mina xəritələrini təqdim etməklə bu istiqamətdə addım atıb. Avropa İttifaqı olaraq bu mübadiləni alqışlayırıq. Gürcüstanın bu prosesdə rolu təqdirəlayiqdir. Aİ dayanıqlı sülhün əldə olunması üçün istənilən dəstəyi göstərməyə hazırdır. Avropa İttifaqı, həmçinin maliyyə dəstəyi göstərməyə hazırdır və bu, hər iki tərəf üçün faydalı olar".

## *Dmitri PESKOV:* "Azərbaycan tərəfi ilə əlaqələr daimi əsasda davam edir"

Qarabağ üzrə üçtərəfli bəyanatların icrası mühüm və alternativsizdir.

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.



Dmitri Peskov RF Prezidenti Vladimir Putin ilə Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyanın Moskvada danışıqlarından sonra deyib: "Azərbaycan tərəfi ilə əlaqələr daimi əsasda davam edir. Hər kəs razıdır ki, üçtərəfli bəyanatların müddəalarının icrası çox mühüm və alternativsizdir. Bu icra çərçivəsində də Ermənistan və Azərbaycan tərəfləri ilə əlaqələr həyata keçir. İkitərəfli münasibətlər üzrə dünən ətraflı danışılıb, üçtərəfli bəyanatların icrasının müxtəlif nüansları və təbii ki, ticari-iqtisadi məsələlər də müzakirə edilib".

# Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyası keçirilib




İyulun 8-də altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyası keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sessiyanın gündəliyinə aşağıdakı məsələlər verilib:

1. 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları.

2. Naxçıvan Muxtar Respublikasının 2020-ci il dövlət büdcəsinin icrasının təsdiq edilməsi.

Gündəlikdə duran birinci məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Baş Nazirinin birinci müavini Elşad Əliyev çıxış edərək deyib ki, aqrar sahədə həyata keçirilən kompleks tədbirlər kənd təsərrüfatının davamlı və dinamik inkişafını təmin edib.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev çıxış edərək deyib ki, muxtar respublika iqtisadiyyatının bütün sahələr üzrə dinamik inkişafı cari ilin ötən dövründə də davam etdirilib, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşıb, yeni iş yerləri açılıb, əhalinin maddi-rifah halı yüksəlib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları barədə məruzə edib.

O qeyd edib ki, Naxçıvan Muxtar Respublikasında 2021-ci ilin birinci yarısında bütün sahələrdə inkişaf təmin edilmiş, quruculuq işləri aparılmış, əhalinin rifahı daha da yaxşılaşdırılmışdır. Bu dövrün ən mühüm hadisəsi mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin muxtar respublikaya səfəri olmuşdur.

Muxtar respublikanın inkişafını yüksək qiymətləndirən ölkə Prezidenti demişdir: *"Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir... Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu gün Ulu Öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax, bu inkişafda təcəssüm etdirir"*.

2021-ci ilin birinci yarısında muxtar respublikada həyata keçirilən ardıcıl tədbirlər sosial-iqtisadi tərəqqiyə öz töhfəsini vermiş, dayanıqlı və tarazlı inkişaf təmin olunmuşdur. Cari ilin birinci yarısında ümumi daxili məhsulun həcmi 1 milyard 328 milyon manat olmuşdur ki, bunun da 86 faizi özəl bölmənin payına düşmüşdür.

Ötən dövrdə muxtar respublikada sahibkarlıq fəaliyyətinin təşviqi məqsədilə 18 milyon manata yaxın kredit verilmiş, 55 yeni istehsal və xidmət sahəsi yaradılmışdır. Hazırda muxtar respublikada 384 növdə məhsulun istehsal olunması dayanıqlı inkişafın nəticəsi kimi mühüm əhəmiyyətə malikdir.

Ötən 6 ayda muxtar respublikada 116 obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmiş, 168 obyektin tikintisi və yenidənqurulması isə davam etdirilmişdir. Xüsusilə Duzdağda yeni şaxtanın istifadəyə verilməsi mühüm iqtisadi əhəmiyyəti ilə yanaşı, həm də təbii sərvətimiz olan duzun müasir metodlarla çıxarılması, emalı və ixracına geniş imkanlar açmışdır.

2021-ci ilin birinci yarısında muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması sahəsində də sistemli tədbirlər görülmüş, bərpaolunan enerji mənbələrindən istifadə diqqət mərkəzində saxlanılmışdır. Bu dövrdə Şərur rayonunda 5 meqavat gücündə Günəş Elektrik Stansiyasının, Culfa rayonunda isə 1,1 meqavat gücündə Günəş-Külək Hibrid Elektrik Stansiyasının istifadəyə verilməsi muxtar respublikanın enerji tələbatının ödənilməsində alternativ və bərpaolunan enerji mənbələrinin payını artırmışdır.

İlin birinci yarısında əldə edilmiş sosial-iqtisadi inkişaf bundan sonra da davam etdirilməlidir.

Gündəlikdə duran ikinci məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Rafael Əliyev çıxış edib.

Sessiyada "Naxçıvan Muxtar Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu səsə qoyularaq qəbul olunub.

Ali Məclisin Sədri 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında əməyi, sabitliyin və təhlükəsizliyin qorunmasında xidməti olanlara təşəkkürünü bildirib, qarşıdakı dövrdə inkişafın təmin olunmasında sessiya iştirakçılarına, muxtar respublika sakinlərinə uğurlar arzulayıb.

Bununla da altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyası öz işini başa çatdırıb.

# Sankt-Peterburqda keçirilən beynəlxalq konfransda Azərbaycanda prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar barədə məlumat verilib







İyulun 8-də Sankt-Peterburqda keçirilən prokurorluq orqanları rəhbərlərinin konfransı çərçivəsində Müstəqil Dövlətlər Birliyi (MDB) baş prokurorlarının müşavirəsi olub.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın Baş prokuroru Kamran Əliyevin iştirak etdiyi tədbirdə MDB məkanında cinayətkarlığa qarşı mübarizə, o cümlədən terrorçuluq, narkotik maddələrin qanunsuz dövriyyəsi, qanunsuz miqrasiya, vətəndaşların hüquqlarının qorunması və sair məsələlər ətrafında müzakirələr aparılıb.

"Prokurorların cinayət təqibindən kənar fəaliyyətində rolu" mövzusunda keçirilən plenar sessiyada çıxış edən Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü siyasi kursa uyğun olaraq, prokurorluq orqanlarında genişmiqyaslı islahatların aparıldığını, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkarların formalaşdırılması məqsədilə Baş Prokurorluğun struktur dəyişiklikləri barədə tədbir iştirakçılarına məlumat verib.

Çıxışda ölkəmizdə prokurorluğun cinayət təqibindən kənar fəaliyyəti, o cümlədən inzibati və mülki icraatda insan hüquqlarının müdafiəsi sahəsində görülən işlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Tədbir çərçivəsində Baş prokuror Kamran Əliyev, həmçinin rusiyalı həmkarı İqor Krasnov ilə ikitərəfli görüş keçirib. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib, gələcək əməkdaşlığın fəaliyyət istiqamətləri ətrafında, o cümlədən prokurorluqlarımız arasında imzalanmış bir sıra sənədlərin icrası mexanizmləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Kamran Əliyev bir sıra ölkələrin, o cümlədən Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Xorvatiyanın Baş prokurorları, həmçinin Beynəlxalq Prokurorlar Assosiasiyasının prezidenti, Avropa Şurası İnsan hüquqları və qanunun aliliyi Direktorluğunun rəhbəri və digər ölkələrdən olan həmkarları və nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxsləri ilə görüşlər keçirib. Görüşlərdə gələcək əməkdaşlığın perspektivləri müzakirə olunub.

# <u>*Şəhərsalma və Arxitektura Komitəsi:*</u> "11 rayon və şəhərdə yenidənqurma və təmir-tikinti işləri sürətlə davam edir"




İkinci Qarabağ müharibəsi dövründə Ermənistan silahlı qüvvələri münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən dinc şəhər və rayonları müxtəlif növ silahlarla, artilleriya və ballistik raketlərlə atəşə tutaraq mülki əhalini və eləcə də infrastruktur obyektlərini hədəf seçərək fərdi yaşayış evlərinə, sosial və iaşə tikililərinə irimiqyaslı zərər vurub.

Dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması məqsədilə Prezident İlham Əliyevin 2020-ci il 6 noyabr tarixli sərəncamı ilə yaradılmış Dövlət Komissiyası tərəfindən ümumilikdə 11 şəhər və rayon ərazisində 12 mindən çox obyektə baxış keçirilib, qiymətləndirmə və təmir-tikintinin ilkin planlaşdırılması işləri aparılıb.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2021-ci il 14 yanvar tarixli sərəncamına əsasən, həmin yaşayış evlərinə və obyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı zərər çəkmiş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi üçün yaşayış evlərinin və obyektlərin tikintisi üzrə sifarişçi funksiyaları, habelə inşa prosesində həyata keçiriləcək işlərin təşkili və əlaqələndirilməsi Şəhərsalma və Arxitektura Komitəsinə həvalə edilib. Bu istiqamətdə fəaliyyətə başlamaq üçün komitə cari il yanvarın sonundan etibarən ziyan dəymiş ərazilərdə təmir-tikinti işlərinə paralel olaraq başlayıb: ilk mərhələdə zəruri hazırlıq işləri aparılıb, məlumatlar aidiyyəti qurumlardan toplanılaraq siyahılaşdırılıb, iş həcmi dəqiqləşdirilib, ərazilər üzrə qəzalı və təmirə ehtiyacı olan fərdi yaşayış evləri, çoxmənzilli binalar və qeyri-yaşayış obyektləri olmaqla qruplaşdırılıb, həmçinin dağılmış və qəzalı vəziyyətə düşmüş fərdi yaşayış evlərinin bərpası üçün 2, 3, 4 və 5 otaqlı evlərin nümunəvi layihəsi hazırlanıb.

Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Gəncə, Mingəçevir, Tərtər və Naftalan şəhərlərində, habelə Füzuli, Cəbrayıl, Goranboy, Ağdam, Ağcabədi, Beyləqan və Bərdə rayonları ərazisində dəymiş ziyanın aradan qaldırılması istiqamətində işlər planlaşdırılmış qrafik üzrə aparılır və onların qısa bir zamanda tamamlanaraq mərhələli şəkildə təhvil verilməsi, sakinlərin rahat həyat şəraitinə qaytarılması üçün bütün zəruri qüvvələr cəlb edilib. Tikinti və təmir-bərpa işlərinin sürətli və keyfiyyətlə aparılması üçün yerlərə tikinti-inşaat materialları ilə fasiləsiz təminat həyata keçirilir.

Hazırkı mərhələdə 6300-dən çox yaşayış və qeyri-yaşayış obyekti üzrə təmir-bərpa işləri artıq yekunlaşdırılıb, digər zərər çəkmiş tikililərin yenidənqurma və bərpası üzrə işlər isə sürətlə davam edir. Belə ki, görülmüş işlər müxtəlif istiqamətlər üzrə həyata keçirilib: qismən dağıntıya məruz qalan evlər və sahibkarlıq obyektləri üzrə təmir işləri aparılıb, tikililərin divarları bərpa edilib, dam örtükləri, qapı-pəncərələri yenidən quraşdırılıb. Yenidənqurma və təmir-bərpası tələb olunan digər zərər çəkmiş obyektlər də mərhələli şəkildə zəruri tikinti materialları və texnika ilə təmin edilir, cəlb edilmiş işçi qüvvəsi tərəfindən işlər planlı şəkildə davam etdirilir.

Bununla yanaşı, 156 dağıdılmış və ya qəzalı vəziyyətə düşmüş fərdi ev və qeyri-yaşayış obyektlərinin yerində yeniləri inşa olunur, onlardan Tərtər, Ağdam, Ağcabədi, Beyləqan, Bərdə, Mingəçevir və Füzuli üzrə 65 fərdi yaşayış evinin inşası artıq yekunlaşaraq sakinlərin istifadəsinə verilib.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi əhaliyə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin verdiyi tapşırıqları rəhbər tutaraq insanların mümkün ən qısa müddət ərzində doğma şəhər və qəsəbələrində əvvəlki həyata qayıtması üçün bütün zəruri resurslarını səfərbər edib və 11 rayon və şəhər üzrə tikinti, təmir-bərpa işlərinin tezliklə başa çatdırılması nəzərdə tutulur.

# Uğurlu siyasətin nəticəsi

*<u>Əvvəli 1-ci səh.</u>*

Azərbaycan zamanla qarşısına qoyduğu bütün məqsədlərə nail olacaq. Baş verən son hadisələr bu fikri bir daha təsdiq etdi.

Xəritələrin əldə edilməsi işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinin sürətlə aparılmasına şərait yaradacaq. Artıq bölgədə geniş quruculuq işlərinə başlanılıb. Qısa müddətdə bu ərazilərdə həyat öz axarına düşəcək. Eyni zamanda mina xəritələrinin Azərbaycana verilməsi onların aşkarlanması üçün sərf olunan xərclərin azaldılmasına gətirib çıxaracaq. Burada ən vacib məsələlərdən biri də xəritələrin əldə edilməsinin insan itkisinin qarşısının alınmasında əhəmiyyətli rol oynamasıdır. Son bir neçə ayda 100-dən çox Azərbaycan vətəndaşı bu minaların qurbanına çevrilib. Çoxlu sayda insan dünyasını dəyişib. Ağdamdan sonra ən böyük infrastruktur layihələri Füzuli və Zəngilan rayonlarında həyata keçirilir. Füzulidə yeni hava limanı, dəmir yol xətləri və avtomobil yolları inşa olunur. Bu baxımdan Füzuli xüsusi strateji əhəmiyyət kəsb edir. Xəritələrin əldə olunması layihələrin daha tez zamanda icra olunmasına öz ciddi töhfəsini verəcək.



Bərpa prosesinə ən ciddi əngəl ərazilərin minalanmış olmasıdır. Füzuli rayonunun işğaldan azad olunan ərazilərində hazırda Beynəlxalq Hava Limanının tikintisi daxil olmaqla regional əhəmiyyət daşıyan infrastruktur layihələri həyata keçirilir. İnfrastrukturun formalaşmasından sonra inzibati, sosial və yaşayış binalarının inşası üçün ərazinin minalardan təmizlənməsi prosesi genişləndiriləcək.

Zəngilan rayonu ərazisində də bərpa işləri sürətlənib. Qarabağda ilk dəfə həyata keçiriləcək "Ağıllı kənd" layihəsinin icrasına Zəngilan rayonu Ağaəli kəndindən start verilib. Layihənin icrası 5 komponent üzrə aparılacaq. Bunlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələridir. Ərazidə ilk olaraq tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə edilməklə 200 fərdi evin tikintisi nəzərdə tutulub. Evdaxili mühəndis kommunikasiya, isitmə sistemləri də ağıllı texnologiyalar əsasında qurulacaq.

İşğaldan azad edilmiş rayonların kəndlərində müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, həmçinin turizm infrastrukturu formalaşdırılacaq. Onu da bildirək ki, bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcək. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəklər.

İşğaldan azad olunmuş ərazilərimizdə məskunlaşma 4 mərhələdə aparılacaq. Birinci mərhələ dəymiş ziyanın qiymətləndirilməsini, ikinci mərhələ infrastrukturun formalaşdırılmasını, o cümlədən kommunal xidmətlərə əlçatanlığın təmin edilməsi üçün xüsusi şəbəkənin yaradılmasını əhatə edir. Üçüncü mərhələdə sosial və inzibati binaların inşa edilməsi, dördüncü mərhələdə isə vətəndaşlarımızın doğma yurdlarına qayıtması və məskunlaşması nəzərdə tutulur. Mina xəritələrinin alınması bu dörd mərhələnin sürətlə həyata keçirilməsi deməkdir.

Azərbaycan diplomatiyasının uğurları bir daha onun humanizmin tərəfdarı olduğunu nümayiş etdirir. Ermənistan Azərbaycanın bu humanist siyasətindən özü üçün konkret nəticələr çıxarıb ona müvafiq davranmalıdır. Azərbaycan Ermənistana başqa seçim qoymayıb. İşğaldan azad edilmiş digər ərazilərin də mina xəritələrinin Azərbaycana təqdim ediləcəyi gün uzaqda deyil.

***Ramilə QURBANLI,***
***"Azərbaycan"***

# <u>*Füzuli Rayon Prokurorluğu:*</u> "Minaya düşən şəxslərdən biri həlak olub, digərinin sol ayağı amputasiya edilib"

Füzuli Rayon Prokurorluğu iyulun 8-də işğaldan azad edilmiş Aşağı Əbdürrəhmanlı kəndində iki nəfərin minaya düşməsi ilə bağlı yeni məlumat yayıb.

Rayon prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, iyulun 8-də iki nəfərin Füzuli rayonunun işğaldan azad edilmiş ərazisində minaya düşmələri barədə rayon prokurorluğuna məlumat verilib.




Prokurorluq və polis əməkdaşları tərəfindən Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilib.

Araşdırmalarla müəyyən olunub ki, iyulun 8-də Füzuli rayon sakinləri 1976-cı il təvəllüdlü Nuriyev Nuru Aslan oğlu və 1982-ci il təvəllüdlü Həşimov Elnur Aydın oğlu rayonun işğaldan azad edilmiş Aşağı Əbdürrəhmanlı kəndi istiqamətində piyada hərəkət edərkən minalanmış ərazidə piyada əleyhinə minaya düşüb. Nəticədə Nuru Nuriyev hadisə yerində həlak olub, Elnur Həşimovun isə sol ayağı amputasiya edilib.

Faktla bağlı Füzuli Rayon Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə), 29, 120.2.7-ci (iki və ya daha çox şəxsi öldürməyə cəhd) və digər maddələri ilə cinayət işi başlanıb.

Hazırda intensiv istintaq-əməliyyat hərəkətləri həyata keçirilir.

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Yeni iqtisadi rayonlar ölkəmizin gələcək inkişafı üçün yeni imkanlar açır




## Prezident İlham Əliyevin imzaladığı fərmanla həm də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunduğu növbəti dəfə təsdiqləndi

*Əvvəli 1-ci səh.*

Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları Mərkəzi Aran iqtisadi rayonunda, Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları Mil-Muğan iqtisadi rayonunda birləşəcək. Şəki-Zaqatala iqtisadi rayonu Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları, Şərqi Zəngəzur iqtisadi rayonu Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları, Şirvan-Salyan iqtisadi rayonu isə Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonlarından ibarət olacaq.

Prezidentin fərmanında vurğulanır ki, Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir. Eləcə də Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir.

Azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar, o cümlədən Gəncə-Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktorunun müavini Ramil Hüseyn iqtisadi rayonların sayının 14-ə çatdırıldığını şərh edərək bildirib ki, Azərbaycan iqtisadiyyatı üç dəfədən çox böyüyüb, iqtisadiyyatın regional və sektoral strukturu dəyişib, habelə Qarabağın iqtisadi dövriyyəyə qayıtması və regional kommunikasiyaların, o cümlədən Zəngəzur dəhlizinin açılması perspektivi yeni reallıqlar yaradıb. O, Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılmasının həm də tarixi ədalətin bərpası olduğunu vurğulayıb. Gəncə-Qazax və Aran iqtisadi rayonlarının tərkibinə yenidən baxılmasının da günün tələbi olduğunu diqqətə çatdırıb.

İqtisadi rayonların ölkə miqyasında təsərrüfatın ixtisaslaşma istiqamətlərinə görə fərqlənən ərazilər olduğunu qeyd edən R.Hüseyn deyib: "Yeni reallıq iqtisadi rayonlaşdırmaya yeni yanaşmanı əsaslandırır. Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü xüsusən Qarabağın bərpası və inkişafı istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasına töhfə verəcək, ölkədə iqtisadi idarəetmədə çevikliyin təmin olunmasına, institusional islahatlar aparılmasına xidmət edəcək. Xüsusən də iqtisadi rayonlar üzrə planlaşdırma işinin səmərəliliyini artıracaq. Regionların sosial-iqtisadi inkişaf proqramı, eyni zamanda Qarabağın inkişaf strategiyası da iqtisadi rayonların yeni bölgüsünə uyğunlaşdırılacaq".

Əksər regionların iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil etdiyindən yeni bölgü bu sahənin inkişafı üçün də yeni perspektivlər açır. Kənd Təsərrüfatı Nazirliyi Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə yeni bölgünün iki baxımdan önəmli olduğu barədə fikir yürüdür: "Birinci budur ki, azad olunmuş ərazilərin iqtisadi region kimi yenidən qruplaşdırılması baş verir. Bu, azad olunmuş ərazilərimizdə sosial-iqtisadi inkişafın planlaşdırılmasında ciddi üstünlüklər yaradacaq. İqtisadi regionlar üzrə yeni bölgüdə Aran iqtisadi rayonunun bir neçə rayona ayrılması ikinci mühüm məsələdir. Bu rayonda çoxşaxəli fəaliyyət sahələri olan çoxlu sayda rayonlar birləşdirilmişdi. İndi bölgü kənd təsərrüfatı istehsalının ixtisaslaşmasına uyğun aparılıb. Bunu Gəncə-Qazax iqtisadi rayonu üzrə aparılan dəyişikliklə bağlı da demək olar".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# KOBİA ilə USAID arasında anlaşma memorandumu imzalanıb

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID) arasında kiçik və orta sahibkarlıq sahəsində əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

Sənədi agentliyin İdarə Heyətinin sədri Orxan Məmmədov və USAID-in Azərbaycan üzrə missiyasının direktoru Caydev Sinqx imzalayıblar. İmzalanma mərasimində ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberqer də iştirak edib.

Sənədə əsasən, KOBİA və USAID daha əlverişli və rəqabətli biznes mühitinin yaradılması istiqamətində birgə təşəbbüslər həyata keçirəcək, yerli KOB-lara məhsuldarlığı, gəlirləri və keyfiyyəti artırmaq, satış bazarlarını şaxələndirmək imkanı verən, eləcə də COVID-19 pandemiyası kimi böhranlı vəziyyətlərə qarşı dayanıqlılığı gücləndirən tədbirləri dəstəkləyəcək. Birgə əməkdaşlıq çərçivəsində KOBİA və USAID Azərbaycanda fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların rəqabətliliyinin, biznes assosiasiyalarının potensialının gücləndirilməsini, ölkəmizə innovativ biznes texnologiyalarının gətirilməsini də diqqət mərkəzində saxlayacaq.

"KOBİA yerli KOB-ların inkişafı üçün qabaqcıl təcrübənin öyrənilməsinə, bu sahədə müvafiq təşkilatlarla əməkdaşlığa xüsusi əhəmiyyət verir. İnanırıq ki, USAID ilə imzalanmış anlaşma memorandumu da biznes tərəfdaşlığının inkişafına, KOB-lara göstərilən dəstək və xidmətlərin daha da yaxşılaşmasına, KOB-ların böyüməsinə öz müsbət töhfəsini verəcək", - deyə O.Məmmədov qeyd edib.

"ABŞ və Azərbaycan şirkətləri arasındakı biznes tərəfdaşlığı və əlaqələri qarşılıqlı dostluq münasibətlərinin gücləndirilməsi və iqtisadi artımın təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Ümid edirik ki, bu anlaşma memorandumu birgə inkişafa şərait yaradan biznes tərəfdaşlıqlarının qurulması ilə nəticələnəcək", - deyə ABŞ-ın Azərbaycandakı səfiri L.Litzenberqer bildirib.

USAID-in Azərbaycan üzrə missiyasının direktoru C.Sinqx deyib: "USAID hesab edir ki, kiçik və orta sahibkarlıq inklüziv və dayanıqlı iqtisadi inkişafı təmin etməklə yoxsulluğun azaldılmasında müstəsna rol oynayır. Ona görə də kiçik və orta sahibkarları dəstəkləmək və onlar üçün əlverişli biznes mühiti yaratmaq missiyasını həyata keçirən KOBİA-nın oynadığı rol əhəmiyyətlidir. Biz qarşılıqlı tərəfdaşlığı daha da gücləndirmək niyyətindəyik".

İmzalanma tədbiri çərçivəsində həmçinin KOB sahəsində agentlik və USAID arasında əməkdaşlıq perspektivlərinə, təcrübə mübadiləsinə, ABŞ-ın KOB sahəsi üzrə fəaliyyət göstərən qurumları ilə əlaqələrin inkişafına dair fikir mübadiləsi aparılıb.

# Yeni ixrac bazarlarına çıxışın dəstəklənməsi müzakirə olunub

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) innovativ layihələrinin təmsilçiləri və Azərbaycan Beynəlxalq Bankının (ABB) Sahibkarlar Klubu nümayəndələri arasında görüş keçirilib.

İİTKM-dən AZƏRTAC-a bildirilib ki, görüşdə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin innovativ layihələri olan "Azexport.az", "Rəqəmsal Ticarət Qovşağı", "Bir Pəncərə İxraca Dəstək Mərkəzi", "EnterpriseAzerbaijan" portallarının rəhbərləri və Sahibkarlar Klubunun təmsilçiləri arasında mövcud vəziyyət və potensial əməkdaşlıq istiqamətləri üzrə müzakirələr aparılıb.

Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatların başlıca məqsədlərindən biri də ölkədə fəaliyyət göstərən sahibkarlar üçün əlverişli biznes mühitinin yaradılmasıdır. Bu məqsədlə bir çox layihələr həyata keçirilir, yeni dövlət proqramları qəbul olunur. Bu istiqamətdə ABB ilə İİTKM arasında da uğurlu əməkdaşlıq təcrübəsi var.

Tədbirdə çıxış edən nümayəndələr faktorinq, akkreditiv, ixrac krediti kimi müxtəlif maliyyə alətlərindən faydalanma imkanları, həmçinin kiçik və orta sahibkarlıq subyektlərinin yeni ixrac bazarlarına çıxışının dəstəklənməsi məqsədilə həyata keçirilməsi nəzərdə tutulan layihələr barədə danışıqlar apararaq konkret təkliflər irəli sürüblər.

Qeyd edək ki, ABB-nin yaratdığı Sahibkarlar Klubunun 500-dən çox üzvü var.

# Gədəbəy taxılçıları bol məhsul yetişdiriblər

Kartofçuluqda ad çıxarmış gədəbəylilər hər il taxıl sahələrindən də bol məhsul götürürlər. Gədəbəydə cari ilin məhsulu üçün 2984 hektarda taxıl əkilmişdir ki, onun da 2732 hektarı buğda, 252 hektarı arpadır.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Asəf Nağıyev deyir ki, Gədəbəydə taxıl əsasən dəmyə şəraitində yetişdirilir: "Odur ki, taxıl biçininə aran bölgəsində başa çatdıqdan sonra başlanılır. Biçində lazım olan kombayn və texnika sarıdan problem olmur. Keçən il hər hektardan 30,2 sentner taxıl götürən fermerlərimiz bu il daha yüksək nəticə üçün əllərindən gələni əsirgəmirlər".

Rayonda ən çox Zəhmət, Slavyanka, Novosaratovka, Novoivanovka kəndlərində, eləcə də Şınıx bölgəsində taxıl əkilir. Dövlətin taxılçılığın inkişafına verdiyi dəstəkdən yararlanan fermerlər yetişdirilən məhsulu itkisiz biçmək üçün bütün imkanlardan maksimum istifadə etməyə çalışırlar. Artıq sahələrdə herbisid və gübrələrin verilməsi, eləcə də alaq otlarına qarşı mübarizə tədbirləri başa çatdırılmışdır. Hazırda ziyanvericilərə qarşı mübarizə tədbirləri davam etdirilir.

Ümumiyyətlə, rayonda taxılçılığa maraq ildən-ilə artır. İndi elə təsərrüfat sahibləri var ki, göstəriciləri rayon üzrə orta nəticədən yüksəkdir. Məsələn, Arabaçı kəndinin sakini Əlövsət Bayramov hər il 22 hektarda taxıl əkir. Keçən il hər hektardan 35 sentner məhsul götürən sahibkar bu il daha yüksək göstəriciyə nail olacağını deyir.

Zəhmət kəndinin sakini Eldəniz İbrahimov da keçən il yüksək göstəriciyə nail olmuşdur. 2,5 hektar sahədə taxıl əkən təsərrüfat sahibi məhsuldarlığı 34 sentnerə çatdırmışdır.

Taxılçılıqda zəngin təcrübə toplayan Düz Rəsullu kənd sakini Əhməd Əsgərovun əldə etdiyi məhsuldarlıq isə daha yüksək olmuşdur - 37 sentner. Hazırda Əhməd Əsgərov zəmilərdə bol məhsul yetişdirmişdir. O, keçənilki göstəricini təzələyəcəyinə əmindir.



Qeyd edək ki, havaların həddindən artıq isti keçməsi Gədəbəydə də taxılın tez yetişməsinə səbəb olmuşdur. Odur ki, rayon fermerləri avqustun 1-dən biçinə başlamaq fikrindədirlər. Onlar bu il hər hektardan 31 sentnerdən çox məhsul götürəcəklərini proqnozlaşdırırlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi davam edir

*Əvvəli 1-ci səh.*

Strateji əhəmiyyətə malik avtomobil yolu başlanğıcını Füzulinin Əhmədbəyli kəndindən götürməklə layihələndirilib. Avtomobil yolunun uzunluğu 124 kilometrdir. Dövlət başçısının tapşırığına əsasən, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 6 və 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir. Yolun ilk 76 kilometrlik hissəsinin 3 gediş - 3 gəliş olmaqla 6, qalan 48 kilometrlik hissəsinin isə 2 gediş - 2 gəliş olmaqla 4 hərəkət zolaqlı olması nəzərdə tutulub.

Yolboyu genişmiqyaslı tikinti işləri davam etdirilir. İş həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "16 N-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC ilə subpodratçı olaraq Türkiyənin yol tikintisi sahəsində ixtisaslaşmış şirkəti olan "Kalyon RSY İnşaat Adi Ortaklığı Ticari İşletmesi" şirkətinin ölkəmizdəki filialı birgə icra edir.



Hazırda sözügedən avtomobil yolunun ilk 76 kilometrlik hissəsində torpaq işləri görülür. Eyni zamanda topoqrafiya-geodeziya işləri, həmçinin layihəyə uyğun olaraq ərazinin təmizlənməsi icra olunur. Bunun üçün tikinti ərazisinə lazımi sayda qüvvə cəlb edilib.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun olaraq zəruri yerlərdə ümumi uzunluğu 3400 metr təşkil edən 3 avtomobil tuneli, 2 viaduk və 23 avtomobil körpüsü, 8 yol ötürücüsü, 50 yeraltı keçid, 5 yerüstü keçid, suların ötürülməsini təmin etmək məqsədilə 400 dairəvi boru və düzbucaqlı su keçidi, həmçinin kommunikasiya xətləri üçün 60 ehtiyat keçidinin inşası nəzərdə tutulub ki, bu işlərin müəyyən hissəsi artıq icra olunur. Hazırda iki körpünün svay işləri görülür.

Yolun tikintisinin qısa müddət ərzində icra edilməsini təmin etmək üçün ərazidə tikiləcək düşərgənin inşası artıq yekunlaşmaq üzrədir. Düşərgədə asfalt-beton zavodu, maşın-mexanizmlərin saxlanılması və xidməti üçün xüsusi ərazi, həmçinin işçilər üçün hər bir şəraiti olan ofis, yeməkxana və dincəlmək üçün yerlər qurulur.

Yeni Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu işğaldan azad edilmiş Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının ərazisindən keçir və hazırda inşası aparılan Əhmədbəyli-Füzuli-Şuşa, Şükürbəyli-Cəbrayıl-Hadrut və Xudafərin-Qubadlı-Laçın avtomobil yolları başlanğıcını məhz bu yoldan götürür.

# Qlobal istiləşmə: təbiətin şıltaqlığı, yoxsa insan amili?

İndiyədək skeptiklər hesab edirlər ki, iqlimin istiləşməsi təbii prosesdir. Belə ki, Yer tarixində həm soyuq, həm də ılıq dövrlər olub və karbon qazının emissiyasının bu prosesdə rolu yoxdur. Bəs elm bu barədə nə deyir?



Yer planeti öz tarixinin 4,5 milyard ilində həm istiləşmə, həm də soyuqlaşma dövrlərini yaşayıb. Bu, faktdır. Temperatur bir çox minilliklər ərzində dəyişmişdir. Proses Yerin Günəş ətrafında fırlandığı orbitin dəyişməsi ilə bağlıdır. Planetimiz Günəşdən aralananda soyuq olur, yaxınlaşanda isə istiləşmə başlayır. Lakin XX əsrin sonlarında alimlər müəyyənləşdirmişlər ki, 1980-ci illərdən başlayaraq istiləşmə əvvəlki dövrlərdən daha sürətlə baş verir.

1998-ci ildə ABŞ-dakı Massaçusets və Arizona universitetlərinin dendroxronologiya laboratoriyasının alimləri son 1000 il ərzində Yerdə orta illik temperaturu göstərən tədqiqat dərc etmişlər. Onlar termometrlərin mövcud olmadığı, yəni 500 il və bundan çox əvvəl təbii informasiya daşıyıcılarına (buzlaqlar, ağaclardakı illik halqalar və s.) əsaslanaraq temperaturu müəyyənləşdirmişlər. Məlum olmuşdur ki, bir çox yüzilliklər ərzində normadan kənara çıxmalar cüzi olmuş, XX əsrdə isə qəflətən temperaturda kəskin sıçrayış baş vermişdir.

2013-cü ildə "Science" jurnalında Yerdə temperaturun 11 min il bundan əvvəlki dövrdə dəyişməsi təhlil edilmişdir. Qənaət eyni olmuşdur: ötən əsrdə planetimiz əvvəlki buz dövrü bitməsindən sonrakı hər bir zamandakından daha tez istiləşmişdir. Eyni zamanda alimlərin fikrincə, son 2 min il ərzində Yer elə bir orbitdədir ki, onun təbii soyuması baş verir. Lakin tədqiqatda bildirilir ki, bu təbii soyuqlaşma hazırda parnik qazlarının emissiyasından əmələ gələn istiləşməyə görə hiss olunmur.

Parnik effekti Yer üzündə həyatı mümkün edən təbii prosesdir. Atmosferdəki müəyyən qazlar Yerdən gələn istini udur və qismən onu geri qaytarır. Təxmini olaraq bu proses istixanalarda da baş verir. Təbii parnik qazlarına karbon qazı ($CO_2$), metan və azot oksidi daxildir. Minilliklər boyunca təbiət bu qazların atmosferdəki miqdarını optimal şəkildə tənzimləyirdi. Lakin insanlar enerji almaq üçün mədən yanacağından istifadə etməyə başladıqdan sonra karbon qazının emissiyası xeyli artmışdır. Bunun, habelə insanların digər fəaliyyəti nəticəsində atmosferdə təbii balans pozulmuşdur. Yer daha sürətlə istiləşməyə başlamışdır.

BMT-nin Ümumdünya Meteoroloji Təşkilatının hesabatına əsasən, ötən il orta illik temperatur sənayeləşmədən əvvəlki dövrlə (1850-1900-cü illər), yəni mədən xammalı enerji daşıyıcıları qismində kütləvi şəkildə istifadə olunmadığı vaxtla müqayisədə 1,2 dərəcə yüksək olmuşdur. Hesabat müəllifləri bildirirlər ki, insan fəaliyyəti nəticəsində parnik qazları emissiyasının artması iqlim dəyişikliyinin ən vacib səbəblərindən biridir. Bu ilin may ayında $CO_2$-nin Yer atmosferindəki orta konsentrasiyası 415 ppm təşkil etmişdir. Sonuncu dəfə karbon qazının Yer atmosferində bu cür yüksək konsentrasiyası müasir insanın olmadığı vaxtda, dünya okeanı isə hazırkından 30 metr yüksəkdə olduğu zamanda, yəni bir neçə milyon il əvvəl olmuşdur.

NASA-nın Robert Qoddard adına Kosmik Tədqiqatlar İnstitutunda iqlimlə məşğul olan Bencamin Kuk "Alman dalğası" radiostansiyasına müsahibəsində deyir ki, ötən əsrin sonlarında alimlər qlobal istiləşməyə izah axtarmağa başlayanda parnik qazları, Günəş enerjisi, okeanlardakı sirkulyasiya, vulkan aktivliyi kimi müxtəlif amilləri öyrəndilər. Və ancaq mədən enerji daşıyıcılarının yandırılması nəticəsində parnik qazlarının emissiyasının artımı Yerdə istiləşməyə uyğun gəlirdi. Kukun dediyinə görə, elmi birlik hazırda iqlim dəyişikliyinin insan fəaliyyətinin nəticəsində baş verdiyinə tam əmindir.

İqlim dəyişikliyi problemlərinə həsr olunmuş 11602 elmi məqalənin analizi göstərmişdir ki, bütün alimlər qlobal istiləşmənin antropogen təbiəti ilə razıdırlar. Bu təhlili tanınmış amerikalı geoloq və iqlim dəyişməsi barədə 11 kitabın müəllifi Ceyms Lourens Pauell aparmışdır.

İqlim dəyişməsi üzrə hökumətlərarası ekspertlər qrupu da əmindir ki, qlobal istiləşmə insan fəaliyyətinin nəticəsidir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycanın himayəsi ilə İstanbulda XXIV Avrasiya İqtisadi Zirvəsi keçirilib

Azərbaycanın dəstəyi və Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfi tərəfindən İstanbulda XXIV Avrasiya İqtisadi Zirvəsi keçirilir.







"Bəşəriyyət daha yaxşısına layiqdir" devizi ilə keçirilən XXIV Avrasiya İqtisadi Zirvəsi yeni növ koronavirus (COVID-19) pandemiyasından sonra dünyanın yeni düzənini müzakirə etməyi qarşısına məqsəd qoyub.

AZƏRTAC xəbər verir ki, COVID-19 pandemiyası riskinə görə, iştirakçıların bir hissəsinin onlayn qatıldığı toplantıda siyasi və dövlət xadimləri, nazirlər, beynəlxalq təşkilat rəhbərləri, sabiq dövlət və hökumət başçıları iştirak ediblər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün, vətənlərimizin bütövlüyü uğrunda canlarından keçən qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra Türkiyənin Dövlət Himni səsləndirilib.

Azərbaycan Prezidenti İlham Əliyevin toplantıya ünvanladığı məktubu energetika naziri Pərviz Şahbazov, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın məktubunu isə Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım oxuyub.

Sonra Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suver ənənəvi Avrasiya İqtisadi Zirvəsinin qarşıya qoyduğu vəzifələr, o cümlədən toplantının məram və məqsədlərindən danışıb. O diqqətə çatdırıb ki, böhranlardan çıxış yolu, ölkələrin inkişafı, insanların rifahının və xalqların dostluğunun təmin olunmasından asılıdır. Bunun üçün insan cəmiyyəti layiq olduğu həyata doğru irəliləməlidir.

Daha sonra Türkiyənin xarici işlər nazirinin müavini Yavuz Selim Kıran, İstanbul valisi Ali Yerlikaya, İstanbulun Avcılar Rayon Bələdiyyəsinin sədri Turan Hançerli, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Baş katibi Lazar Comanescu, QDİƏT Parlament Məclisinin Baş katibi, akademik Asəf Hacıyev, Türkiyə İxracatçılar Məclisinin rəhbəri İsmail Gülle, professor İoanna Kuçuradi, İstanbul Hazır Geyim və Geyim İxracatçıları Birliyinin (İHKİB) sədr müavini Urfi Akbalık, o cümlədən xarici qonaqların çıxışlarında toplantının işinə uğurlar arzulayıb, müzakirə olunacaq mövzuların aktuallığını və əhəmiyyətini yüksək dəyərləndiriblər.

Rəsmi açılışdan sonra İstanbul Hazır Geyim və Geyim İxracatçıları Birliyinin təqdimatı olub.

Toplantıda Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suver və Özbəkistanın Strateji İnkişaf Mərkəzinin icraçı direktoru Eldar Tulyakov iki qurum arasında əməkdaşlığa dair niyyət protokolu imzalayıblar.

Bugünkü ikinci panel isə Avropa-Qafqaz-Asiya və Şimal-Cənub nəqliyyat dəhlizinin strateji coğrafi əhəmiyyəti əsasında Prezident İlham Əliyev tərəfindən iyulun 1-də təməli qoyulan Ələt Azad İqtisadi Zonasına (AİZ) həsr olunub. Ələt Azad İqtisadi Zonasını XXIV Avrasiya İqtisadi Zirvəsində AİZ-in səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov təmsil ediblər.

# XXIV Avrasiya İqtisadi Zirvəsi - Ələt Azad İqtisadi Zonası böyük perspektivə malik beynəlxalq layihədir

Azərbaycanın dəstəyi və Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə İstanbulda keçirilən XXIV Avrasiya İqtisadi Zirvəsi çərçivəsində "Mədəniyyətdə və sosial həyatda yeni üfüqlər: daha yeni başlanğıclar" mövzusunda panel iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, bu panel Avropa-Qafqaz-Asiya və Şimal-Cənub nəqliyyat dəhlizinin strateji coğrafi əhəmiyyəti əsasında Prezident İlham Əliyev tərəfindən iyulun 1-də təməli qoyulan Ələt Azad İqtisadi Zonasına həsr olunub. Mövzu ətrafında geniş məruzə edən Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov Azərbaycanın həyata keçirdiyi bu nəhəng beynəlxalq layihənin məqsəd və hədəflərini iştirakçılara çatdırıb.

Ələt Azad İqtisadi Zonasının coğrafi vəziyyətinin əlverişli-dənizin kənarında, dəniz limanının yaxınlığında yerləşdiyini, kifayət qədər böyük ərazini əhatə etdiyini, bu layihənin böyük tranzit və ixrac imkanlarına malik olduğunu diqqətə çatdıran V.Ələsgərov vurğulayıb ki, hazırda qarşıda duran mühüm vəzifələrdən biri xaricdən potensial investorları bölgəyə cəlb etməkdir. Ələt Azad İqtisadi Zonasının böyük perspektivə malik beynəlxalq iqtisadi layihə olduğunu ifadə edən V.Ələsgərov bu sahədə əməkdaşlığın əhəmiyyətini yüksək dəyərləndirib, sərmayəçi, ixracatçı və tranzit nəqletmələr üçün vəd edilən böyük güzəştlər barədə geniş məlumat verib.

Sonra panelin sədarətində təmsil olunan Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suver Ələt Azad İqtisadi Zonasının strateji əhəmiyyəti və V.Ələsgərov məruzəsində yer alan mühüm məqamlara dair şərh verərək vurğulayıb ki, bu layihə Azərbaycanın həyata keçirdiyi digər layihələrin davamı kimi beynəlxalq ictimaiyyət və sərmayəçilər, biznes və iş dünyası tərəfindən maraqla qarşılanacaq. Əsas məqsəd Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun rolunu yüksəltmək, enerji, nəqliyyat, tranzit daşımalar və logistikada sərmayənin genişləndirilməsi sayəsində ən yüksək dünya standartlarına uyğun mühit formalaşdırmaqdır. Bütün tədbirlərin məqsədi beynəlxalq mühitdə rəqabətədavamlı iqtisadiyyata nail olmaq dayanır.

Paneldə Prezident İlham Əliyevin Azərbaycanı beynəlxalq rəqabətə davamlı iqtisadi yüksəlişə yönəltməsi siyasəti təhlil edilib.

V.Ələsgərov məruzəsindən sonra Monqolustan parlamentinin sədri Zandanshatar Gombajav, Rumıniya şahzadəsi Radu Al Romaniei, Türkmənistanın maliyyə və iqtisadiyyat nazirinin müavini Rövşən Nuragdyyev, Çin Xarici İşlər İnstitutunun rəhbərinin müavini, səfir Ou Boqian, ABŞ-da fəaliyyət göstərən dünyada Sülh və Sevgi Federasiyasının sədri Hong Tao-tze və başqaları çıxış ediblər.

Həmçinin Türk Hava Yollarının (THY) çoxistiqamətli fəaliyyətinə dair təqdimat keçirilib.

# "YARAT" Gəncədə "Dumanlar başımda dastana döndü" adlı sərgi açıb

"YARAT" Müasir İncəsənət Məkanı Gəncədə Məhsəti Gəncəvi Mərkəzində yerli rəssamların və fotoqrafların əsərlərindən ibarət "Dumanlar başımda dastana döndü" adlı qrup sərgisini təqdim edib.





AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Mədəniyyət Nazirliyi və Məhsəti Gəncəvi Mərkəzinin təşkilati dəstəyi ilə həyata keçirilən sərgidə Ağababa Bağırov, Elnur Babayev, İlqar Cəfərov, Şahvələd Eyvazov, Erkin Ələkbərli, Rəşad Ələkbərov, Xalid Əsgərov, Miranib Həsənoğlu, Əli Qafarov, Cavid Qurbanov, Oleq Litvin, Əli Rza və Nurəhməd Vəliyev kimi rəssam və fotoqrafların instalyasiya, fotoqrafiya və rəqəmsal sənət əsərləri nümayiş olunub.

Ekspozisiyaya "YARAT" Müasir İncəsənət Məkanı və Azərbaycan Fotoqraflar Birliyinin fondlarında saxlanılan əsərlər və fotomateriallar daxil edilib.

"YARAT" Müasir İncəsənət Məkanının İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri Hökümə Kərimova jurnalistlərə müsahibəsində bildirib ki, sərgi müharibə təfərrüatlarının və siyasi münaqişələrin travmatik yaddaşını gündəmə gətirir: "Səyyar sərgi əsasında yerli mütəxəssislər tərəfindən təhsil proqramlarının həyata keçirilməsi də nəzərdə tutulub. Proqram çərçivəsində iştirakçılar müasir incəsənət sahəsində rəqəmsal dünya və virtual reallıq mövzularını araşdırıb, incəsənətdə müxtəlif ünsiyyət kanalları mövzusuna dair seminarlarda iştirak edəcəklər".

Qeyd edək ki, sərgi sentyabrın 25-dək davam edəcək.


## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tenderdə iştirak etmək istəyənlər 400 (dörd yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs - İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının peşəkarlığı və təcrübəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının 2020-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **17.08.2021-ci il saat 16:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **25.08.2021-ci il saat 16:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **26.08.2021-ci il saat 16:00-da** Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


# İsrailin yeni Prezidenti Knessetdə and içdi

İsrailin 11-ci Prezidenti İshak Hersoq Knessetdə təntənəli mərasimdə and içmişdir. Bu barədə "The Times of İsrael" qəzeti xəbər verir. Andiçmə mərasimindən sonra onun prezident vəzifəsində 7 illik müddəti rəsmən başlamışdır. Öz çıxışında yeni Prezident xəbərdarlıq etmişdir ki, İsrailin ümumi idealları və dəyərləri indi heç bir zaman olmadığı kimi kövrəkdir.

İshak Hersoq Fələstin-İsrail münaqişəsinin "iki xalq üçün iki dövlət" prinsipi üzrə dinc tənzimlənməsi tərəfdarı kimi tanınır. Xatırladaq ki, bir müddət əvvəl İsraildə yeni Baş nazir Naftali Bennetin yeni hökuməti fəaliyyətə başlamışdır. Bennet vəd vermişdir ki, hökumət vətəndaşları birləşdirməyə çalışacaq.

# Haitidə 15 günlük matəmdir

Xəbər verildiyi kimi, srağagün gecə Haiti Prezidentinin iqamətgahına hücum edilmişdir. Hücum zamanı dövlət başçısı Jovenel Moiz öldürülmüş, həyat yoldaşı Martin Moiz isə güllə yarası ilə xəstəxanaya çatdırılmışdır. Lakin onun həyatını xilas etmək mümkün olmamışdır.



Dünən Prezidentin qətli ilə əlaqədar Haiti hökuməti 15 günlük milli matəm elan etmişdir. Bu barədə Baş nazir Klod Jozefin dəftərxanasından məlumat verilmişdir. İlkin məlumata görə, hücumu əcnəbilərdən ibarət silahlı dəstə həyata keçirmişdir.

Dünyanın ən yoxsul ölkələrindən biri olan Haitinin Prezidenti Jovenel Moizin 53 yaşı vardı. 2017-ci ildə hakimiyyətə gəlməmişdən əvvəl o, bizneslə məşğul olmuşdu.

Son məlumata görə, ölkənin güc strukturları Prezidentin güman olunan qatillərindən ikisini ələ keçirə bilmişdir. Daha dörd nəfər təslim olmadığı üçün məhv edilmişdir. Bu barədə Milli Polisin rəisi Leon Şarl xəbər vermişdir.

# Dubay limanındakı gəmidə güclü partlayış baş vermişdir

Dubaydakı Cəbəl-Əli limanında lövbərdə dayanan gəminin konteynerində güclü partlayış baş vermişdir. Bu barədə Birləşmiş Ərəb Əmirliklərinin WAM rəsmi informasiya agentliyi xəbər verir. Partlayışdan sonra gəmidə yanğın başlamışdır. Hadisə yerində mülki müdafiə qüvvələri işləyir. İnsident nəticəsində dağıntı və tələfat yoxdur.

Son məlumata görə, yanğınsöndürənlər alovun qarşısını ala bilmişlər. Dubayın mərkəzindən təxminən 30 kilometr məsafədə yerləşən Cəbəl-Əli limanı BƏƏ-nin əsas limanlarından sayılır.

# CAR-ın eks-prezidenti Zuma həbsxanaya göndərilib

Cənubi Afrika Respublikasının eks-prezidenti Ceykob Zuma 15 aylıq həbs cəzasını çəkməyə başlamışdır. O, məhkəməyə qarşı hörmətsizlik etdiyinə görə bu cəzaya məhkum olunmuşdur. Bu barədə "The Guardian" qəzeti xəbər verir.

Bildirilir ki, Zuma iyulin 8-dək təslim olmasaydı, hüquq mühafizə orqanları tərəfindən həbs ediləcəkdi. Lakin sabiq prezident könüllü olaraq özünü təslim etmişdir.

CAR-ın ən yeni tarixində Zuma həbs cəzasına məhkum olunmuş ilk sabiq dövlət başçısıdır.





# Mədəniyyət





● Maarifçi, publisist, ictimai-siyasi xadim



**"Əziz oğlum, artıq səbrim tükənib, dözə bilmirəm. Hamısnı yazacağam. Sıxıntı içində borc alaraq sənin ali təhsil almağını təmin edə bildim. Ali təhsilini bitirib Gəncəyə qayıdanda artıq hər şeyin rahat olacağını yəqin etdim. Sən Gəncəyə gəlib bələdiyyədə ərzaq işləri üzrə müdir oldun. Sənə yenə mən baxdım. Məndən yalnız pul istədin. Sonra Tiflisə gedərək Seymin maarif naziri oldun. Aldığın pul ilə yenə özünü saxlaya bilmədin. Bir neçə dəfə pul istədin, göndərdim. Sonra Azərbaycanın istiqlalını elan etdiniz. Gəldin cümhuriyyətimizin maarif naziri oldun. Dövlətimizin mərkəzi olan Bakıda işlədin. Yenə də aldığın maaş səni təmin etmədi. Yenə məndən pul istədin. Həmişə göndərirdim. Adına olan torpaq sahəsinin bir hissəsini satmışdım. O pullardan da göndərdim sənə. Bu gün isə baş nazirsən. Dövlət başçısısan, yəni ölkəmizin padşahı olmuşsan. Yenə bağının qamışını mən alım?"**
**Bu məktub Bakıya Gəncədən göndərilib. Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri olan oğluna - Nəsib bəy Yusifbəyliyə atası Yusif bəy yazıb...**

## Azadlıq fədaisi

Bu nəslin nümayəndələrinin Gəncəyə XVII-XVIII əsrlərdə Cənubi Azərbaycandan gəldiyi barədə tədqiqatçılarda ehtimallar irəli sürülüb. O da məlumdur ki, XVIII əsrdə Gəncədə torpaq sahələrinə sahib olan Nəsib bəy və Usub bəy sözükeçərli, hörmətli şəxslərdən sayılıblar. Usub bəy Gəncə xanı Cavad xanın vəziri olub. Yusifbəylilər Tovuzun Yuxarı Öysüzlü kəndində malikanə, torpaq sahələri, Gəncə və Hacıkənddə mülklərin sahibiydilər.

XIX əsrin sonu - XX əsrin əvvəllərində bu nəslin nümayəndələri Gəncə şəhərində yaşayıb. Nəsib bəyin yaşadığı ev Gəncənin Səfərabad məhəlləsindəydi.

O, bu şəhərdə 1881-ci il iyulun 5-də dünyaya gəlib. Gəncə gimnaziyasında oxuyub. Təhsilini davam etdirmək üçün 1902-ci ildə Odessa şəhərinə gedib, İmperator Novorosiyski Universitetinin Hüquq fakültəsinə daxil olub. Həmyerliləri olan tələbələrlə birlikdə Azərbaycan Yerlilər Cəmiyyətinin yaradılmasında iştirak edib. İctimai-siyasi düşüncədə oyanışın gənclik coşqusuna qarışdığı zamanlar idi. Çar hökumətini bu canlanma içərisində tələbələrin inqilabi hərəkatı təşvişə salmışdı. İmperator Novorosiyski Universitetini də bu səbəbdən müvəqqəti bağlayıblar. Nəsib bəy 1907-ci ildə Krımın Bağçasaray şəhərinə yollanıb. Və bu şəhərə elə bağlanıb ki, sonralar hara getsə də, harda yaşasa da, Baxçasaraydan həmişəlik qopub ayrıla bilməyib...

Gənc Nəsib bəy böyük türkçü, görkəmli siyasi və ictimai xadim İsmayıl bəy Qaspıralının redaktoru olduğu "Tərcüman" qəzeti ilə əməkdaşlıq edib. Bağçasarayda Azərbaycan dramaturqlarının əsərlərini səhnələşdirib, özü də əsas rollarda çıxış edib.

Nəsib bəyin sevdiyi xanım da baxçasaraylı olub. İsmayıl bəy Qaspıralının böyük qızı Şəfiqə xanımla onu Nəriman Nərimanov tanış edib. Nəsib bəylə Şəfiqə xanım bir-birini sevib, ailə qurublar.

Nəsib bəy siyasi düşüncələrinə və fəallığına görə çar hökumətinin təqibindən qurtula bilməyib. 1908-ci ildə İstanbula köçməli olub. Publisistik fəaliyyətini orada davam etdirib. Türk dərnəyi adlı cəmiyyətin qurucularından olub. Ancaq Türkiyədən də onu sultan istibdadı uzaqlaşdırıb. Nəsib bəy Yusifbəyli 1909-cu ildə yurduna dönüb, Gəncə şəhər bələdiyyəsində fəaliyyət göstərməklə bərabər, müəllim işləyib.

Həmin il Nəsib bəy həyatının ən qüssəli ayrılıqlarından birini yaşayıb. Nə sevgi, nə də iki övlad ailəsini xilas edə bilməyib. 1909-cu ildə o, Şəfiqə xanımdan ayrılıb. Sonralar başqa bir qadınla evlənib. Ancaq bu ayrılıq ucbatından İsmayıl bəylə münasibətləri pozulmayıb. Aralarındakı hörmət, ehtiram 1914-cü ilə, İsmayıl bəy Qaspıralının vəfatınadək davam edib.

Elə Şəfiqə xanımla da bir-birlərini unutmayıblar. Qızları Zöhrə xanımı və oğlanları Niyazini Nəsib bəy ata sevgisindən və qayğısından heç zaman məhrum etməyib.

Dövrün qabaqcıl ziyalılarından olan Nəsib bəy maarifçilik işləri ilə məşğul olub. 1911-ci ildə "Molla Nəsrəddin" jurnalına və qəzetlərə məqalələr göndərib. Müsəlman Xeyriyyə Cəmiyyəti, Müsəlmanların Maariflənməsi Cəmiyyəti, Aktyorlar Cəmiyyətinin fəaliyyətlərində yaxından iştirak edib. Məhəmməd Əmin Rəsulzadə ilə tanış olub. İctimai-siyasi fəallığı yüksək olub.

1917-ci ildə Rusiyada fevral burjua inqilabı baş verib. Həmin ilin martında Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə Gəncədə Türk Ədəmi-Mərkəziyyət Partiyası yaradılıb. Partiya Rusiyanın tərkibində Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizə aparıb. Həmin ilin aprelində Nəsib bəy Bakıda, Qafqaz müsəlmanlarının qurultayındakı çıxışında bu tələbi səsləndirib. 1917-ci ilin mayında isə Moskvada keçirilən Rusiya müsəlmanlarının qurultayında iştirak edib.

İyulda Türk Ədəmi-Mərkəziyyət Partiyası Müsəlman Demokratik Müsavat Partiyası ilə birləşib, Müsavat Partiyası adlandırılıb. Məhəmməd Əmin Rəsulzadə bu partiyanın mərkəzi komitəsinin sədri seçilib. Gəncədə partiyanın rəhbəri Nəsib bəy Yusifbəyli olub. O, Müsavat Partiyasının 1917-ci il oktyabrın 26-dan 31-dək Bakıda, "İsmailiyyə" binasında keçirilən ilk qurultayında fəal iştirak edib. Qurultaydan sonra "Azərbaycana muxtariyyət" şüarı ilə hərəkat başlanıb. 1917-ci ildə Rusiyada bolşeviklər hakimiyyətə gəldikdən sonra isə partiya nizamnaməsində dəyişiklik edərək Azərbaycanın tam müstəqilliyi tələbini irəli sürüb.

1918-ci ildə Zaqafqaziya Seyminə seçilən Nəsib bəy Yusifbəyli Azərbaycanı təmsil edən 44 nümayəndədən biri olub. Həmin il aprelin 22-də yaranan Zaqafqaziya Demokratik Federativ Respublikasında xalq maarif naziri vəzifəsi ona həvalə edilib.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan olunub. Milli Şuranın üzvü Fətəli bəy Xoyskinin baş nazir olduğu birinci kabinədə Nəsib bəy Yusifbəyli xalq maliyyə və xalq maarifi naziri vəzifəsində çalışıb.

Fətəli bəy Xoyskinin başçılıq etdiyi ikinci hökumət kabinəsində Nəsib bəy Yusifbəyli xalq maarifi naziri vəzifəsini icra edib. Xoyskinin təşkil etdiyi üçüncü kabinədə isə o, maarif və dini etiqad naziri təyin olunub.

Dördüncü hökumət kabinəsinin təşkili Nəsib bəy Yusifbəyliyə həvalə olunub. O, 1919-cu il martın 14-də yeni yaratdığı kabinənin üzvlərini parlamentə təqdim edib. Nəsib bəy Yusifbəyli təşkil etdiyi hökumətdə Nazirlər Şurasının sədri və daxili işlər naziri vəzifələrini yerinə yetirib. O, özünün ikinci, Cümhuriyyətin isə beşinci hökumət kabinəsini 1919-ci il dekabrın 22-də təşkil edib. Hökumətə rəhbərlik vəzifəsi Nəsib bəy Yusifbəyli tərəfindən 1920-ci il aprelin 1-dək icra olunub.

1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradılıb. Nağı bəy Şeyxzamanlı "Azərbaycan İstiqlal mücadiləsinin xatirələri" kitabında o məşum günləri belə təsvir edib: "Milli matəmimiz olan 27 aprel 1920-ci ildə ələ keçən Azərbaycan ziyalıları ruslar tərəfindən məhv edilirdilər. Çekanın azğın cəlladları Bakıda xüsusilə müsavatçıları məhv etməyə çalışırlar. Gizli olaraq Nəsib bəylə görüşməyə getmişdim. Bu, mənim onunla son görüşüm oldu. O, bir neçə yoldaşla birlikdə bir evdə saxlanırdı. Çox kədərli idim. Çünki düşmən milli varlığımıza zəhərli bir xəncər saplamışdı".

1920-ci ildə bolşevik Rusiyası tərəfindən Azərbaycan zəbt olunduqdan sonra Cümhuriyyət qurucuları vətənindən didərgin düşüblər. Yeni hökumətin təqiblərindən qurtulmaq üçün Nəsib bəy Yusifbəyli də Bakını tərk edib. Ancaq 1920-ci il mayın 31-də yolda, Kürdəmir uyezdinin Qarxun kəndində müəmmalı şəkildə qətlə yetirilib. Nağı bəy Şeyxzamanlı xatirələr kitabında yazıb: "Bu mənhus günün nəticəsində Azərbaycan istiqlal hərəkatının verdiyi ən mühüm qurbanlardan biri Yusifbəyli Nəsib bəydir. İstilanın baş verdiyi günlərdə müstəfi olsa da, Baş nazir vəzifəsində olan Nəsib bəy Bakının Qızıl ordu tərəfindən işğal olunması səbəbindən gizlədilərək xaricə getməsi üçün yaxın dostu Yusif bəy İbrahimli ilə bərabər Gürcüstana keçmək məqsədi ilə yola çıxmışdı. Onlar Siqnax qəzasında təfsilatı hələlik bizlərə məchul olan faciəli bir qəzaya uğrayaraq qurban getmişdilər".

Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri, maarifçi, publisist, ictimai-siyasi və dövlət xadimi Nəsib bəy Yusifbəylinin xalqına, millətinə, dövlətinə sədaqət, fədakarlıq və təəssübkeşliklə keçən otuz doqquz illik həyatı boyu gördüyü böyük işlər yalnız tarix kitablarının səhifələrində qalmayıb. Nakam ömürlü milli mücahid xalqının müstəqillik arzularında, düşüncələrində yaşayır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Aşıq Ələsgər - 200

## Özün getdin, sözün qaldı dünyada...

**18 fevral 2021-ci ildə Prezident İlham Əliyev aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalamışdır.**



Aşıq Ələsgər Azərbaycan aşıq poeziyasının zirvəsində dayanan sənətkardır. O, 1821-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Ağkilsə kəndində doğulmuşdur. Şeiriyyətə marağı atasının ara-sıra yazdığı qoşma, bayatıdan yaranmışdır. Maddi çətinlik ucbatından Kərbəlayi Qurbanın evində nökərçilik etmiş və onun qardaşı qızı Səhnəbanıya vurulmuşdur. İlk şeirlərini də elə uğursuz məhəbbətinə həsr etmişdir.

Aşıq Ələsgər ustad sənətkar Aşıq Alıdan dərs almışdır. Onun zəngin bədii irsindən bədahətən söylədiyi qoşma, gəraylı, ustadnamə, müxəmməs, dildönməz, dodaqdəyməz təcnis və s. janrlarda yazmış olduğu şeirlər bizə qalmışdır. 72 saz havasından "Göyçəgülü" aşıq havası məhz Aşıq Ələsgərin bəstəsidir.

Dədə Qorquddan qalan saz sənəti UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi ilə xarici ölkələrdə Azərbaycanın qədim, milli sənəti kimi tanınmışdır.

Şeirlərində əsas yeri məhəbbətin tərənnümü, gözəllərin tərifi, təbiət təsviri, əxlaqi-tərbiyəvi fikirlərin təbliği və ictimai eyiblərin tənqidi tutur.

Məhəbbət mövzusunda yazdığı şeirlər bilavasitə aşığın sevgi yolunda çəkdiyi əzab, əziyyətlərdən xəbər verir.

El gözəllərinin tərifinə həsr olunmuş "Güllü", "Telli", "Güləndam", "Bəyistan", "Müşkünaz", "Düşdü" şeirləri Azərbaycan qızlarının mənəvi, əxlaqi keyfiyyətlərini əks etdirir.

*Səni gördüm əl götürdüm dünyadan,*
*Qara gözlü, qələm qaşlı Güləndam,*
*Alma yanağına, bal dodağına,*
*Baxan kimi ağlım çaşdı Güləndam.*

Aşıq Ələsgər bütün varlığı ilə vətəninə, xalqına bağlı olmuşdur və göyçəli olması ilə fəxr etmişdir:

*Adım Ələsgərdir, Göyçə - mahalım,*
*Dolanım başına, mən dərdin alım,*
*Hüsnün şöləsinə xəstə xəyalım*
*Pərvanədi şəmistanlar dolanır.*

Göyçədə yetişən görkəmli aşıqların böyük bir qismi Aşıq Ələsgərin qayğısı sayəsində bu sənətin sirlərinə yiyələnmişlər.

Ustad sənətkar gec ailə həyatı qurmuş, 3 oğlu, 6 qız övladı dünyaya gəlmişdir. Aşığın sənətini davam etdirən yalnız oğlu Aşıq Talıb olmuşdur.

Aşıq Ələsgər yazı-pozu bilməmişdir. Şeirlərini əksər hallarda bədahətən söyləmişdir. Hətta onun şəkli də yoxdur. Bir sıra qaynaqların məlumatına görə, onun şəkli Dəli Alının toyu zamanı yaylaqda, bir də 1916-cı ildə Tiflisdə çəkilmişdir.

Onun ömür-gün yoldaşı Anaxanım 1922-ci ildə, özü isə 1926-cı ildə dünyasını dəyişmişdir.

Təbiətə həsr olunmuş şeirlərində aşığın vətənpərvərliyi, "Yaylaq (iki)" "Dağlar (iki)" şeirlərində öz əksini tapmışdır. Birinci "Dağlar" şeirində nikbin əhvali-ruhiyyə var və burada hər fəslin gözəlliyindən bəhs olunur. İkinci "Dağlar" qoşmasında isə XIX əsrdə ermәni daşnaklarının doğma yurdumuzu viran qoymasından danışılır, təəssüflənir və dağların aldığı qəmli mənzərəni təsvir edir:

*Hanı mən gördüyüm qurğu-büsatlar?!*
*Dərdiməndlər görsə, tez bağrı çatlar.*
*Mələşmir sürülər, kişnəmir atlar,*
*Niyə pərişandı halların, dağlar?*

Aşıq öz təcrübəsinə əsaslanaraq nəsihətlərində insanları düzlüyə, ədalətə, birliyə səsləyir:

*Yad oğlu var yağlı aşa mehmandı,*
*Baxarsan ki, dar günündə usandı.*
*Düşən günü düşmanınla düşmandı,*
*Yüz il keçsə qohum səndən yad olmaz.*

İctimai motivli şeirlərində aşıq dövründəki zülm və haqsızlığa, özbaşınalığa etirazını bildirmişdir.

*Pristav naçalnik gələndə kəndə,*
*Obanı, oymağı vururlar bəndə.*
*Xərc üstə çoxları düşüb kəməndə,*
*Qamçıda belinin qatı çıxıbdı.*

Şairin el qəhrəmanı Dəli Alıya həsr etdiyi şeirlərdə onun nəcib xüsusiyyətləri sadalanır. Eyni zamanda milli adət-ənənələrimiz və Göyçə mahalının qonağa hörmətindən də danışılır.

El aşığı bir müstəzad təcnisində bir ilimizin neçə gündən və neçə saatdan ibarət olduğunu da ədəbiyyatımıza gətirmişdir:

*Şəhr aydır, bayram onun gülüdür,*
*İki ay bir-birinin müttəsilidi.*
*Üç yüz altmış altı gün-bir ilidi.*
*Səkkiz min yeddi yüz səksən dörd saat-*
*Gəl verim isnat.*

Rəvayətə görə, keçmişdə aşıqlar dodaqlarının arasına iynə qoyarmışlar ki, kim dodağını bir-birinə yaxınlaşdırsa, ona iynə batardı. Dodaqdəyməz təcnislər də belə yaranmışdır:

*El yeridi, yalqız qaldın səhrada,*
*Çək əstərin, çal çatığın, çata-çat.*
*Hərcayılar səni saldı irağa,*
*Həsrət əlin yar əlinə çata-çat.*

Ümummilli Lider Heydər Əliyev saza, sənətə qiymət verərək zamanında Aşıq Ələsgərin 150 və 175 illik yubileylərinin keçirilməsi haqqında qərar qəbul etmişdir. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə Aşıqlar Birliyinə Aşıq Ələsgərin adı verilmiş, Muğam Mərkəzinin qarşısında ustad sənətkarın büstü qoyulmuşdur. Onun yaxınlarından olan Hüseyn Həsənov şəxsi evinin dörd otağında Aşıq Ələsgər muzeyi yaratmışdır.

Mərhum xalq şairimiz Səməd Vurğun deyirdi: "Mən hansı mövzuya əl atıramsa, onun Aşıq Ələsgər tərəfindən işlədildiyinin şahidi oluram". Aşıq Ələsgər hərtərəfli dünyagörüşə malik şəxsiyyət olmuşdur.

***Nazilə ƏLİYEVA,***
***Bakı şəhəri 177 nömrəli tam orta məktəbin ədəbiyyat müəllimi***

● Teatr və kino xadimlərimiz

## Sənətin zirvəsində əbədiləşən aktyor

**Aktyor Hamlet Xanızadənin haqqında hansı ziyalının, incəsənət adamının, adi teatr həvəskarının yanında söhbət saldımsa, "nə gözəl aktyor idi..." deyə ilkin olaraq "Topal Teymur" obrazını xatırladılar. "Topal Teymur"un qəddar görkəmi hələ də tamaşaçıların yaddaşından silinməyib. Hamlet Xanızadənin Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı"nda oynadığı Molla Abbas, Nəriman Həsənzadənin "Atabəylər"indəki Nizami, Nazim Hikmətin "Şöhrət və unudulan adam"ında Doktor da bu cür unudulması mümkün olmayan rollardandır.**




Uzun müddət məsul vəzifələrdə dövlət qulluğunda çalışmış, Bakı şəhəri, Nizami rayon Ağsaqqallar Şurasının sədri Mayıl Əliyevin dedikləri: "Mən Bakıya ali təhsil almağa gəldiyim ilk gündən xalamgildə - tanınmış müğənni, Xalq artisti Gülxar Həsənovanın ailəsində yaşamışam. Bu evə aktyor və müğənnilər, xüsusən də bu sahəyə marağı olan gənclər çox gəlirdilər. Hamlet Xanızadə ilə xalam oğlu Hamlet Qurbanovun sənət dostluğuna, xoş münasibətlərinə bu evdən bələdəm. Xalama, adaşı Hamletə görə mənə də dost münasibəti göstərirdi. Dramada rol aldığı bütün tamaşaların dəfələrlə ailəliklə dəvətçisi olmuşuq. Gülxar xanım hər tamaşadan sonra qürur hissi ilə "o, sənətini sevən, rolları yüksək səviyyədə canlandırmağı bacaran gəncdir" deyirdi.

Teatr və kino sənətinin qüdrətli aktyorlarından olan Əməkdar artist, dövlət mükafatı laureatı Hamlet Xanızadə yaradıcılığı boyu can verdiyi obrazlara həmişəyaşarlıq qazandırıb. O, güclü yaradıcı qabiliyyətə, zəngin daxili aləmə və istedada malik olduğundan müxtəlif xarakterli rolları yaratmaqda çətinlik çəkməyib. Hansı rolu oynamasından asılı olmayaraq, təqdim etdiyi obrazların daxili aləminə məharətlə nüfuz etməyi, onları təbii və səmimi canlandırmağı bacarmışdır.

Haqqında istənilən qədər dəyərli sözlər və xatirələr danışılması mümkün olan Hamlet Xanızadə 1941-ci ildə Bakının Şağan qəsəbəsində dünyaya göz açıb. Ağlı kəsəndən aktyorluğa böyük həvəs göstərib. Uşaqlıq illərindən maraqla baxdığı filmlər gənc Hamletin bu istəyinə əlavə güc verib. Bu arzu ilə o, 1961-ci ildə istəyində olduğu ali məktəbin tələbəsi olmuşdur. O günləri xoş duyğularla xatırlayan tanınmış rejissor və aktyor Elxan Qasımovun dediklərindən: "1961-ci ildə Hamletlə bir yerdə imtahan vermişəm. Fəvvarələr meydanında "Nərgiz" kafesi ilə üzbəüz (indi "McDonalds" yerləşir) Mirzağa Əliyev adına Teatr İnstitutunun (indi Mədəniyyət və İncəsənət Universiteti) binası var idi. İmtahan vermək üçün orada növbəyə durmuşduq. Növbəmiz çatanda Hamlet əlimdən tutub, binanın dəhlizə açılan pəncərəsindən içəri saldı. Arxamca özü də pəncərədən girdi, getdik imtahan verməyə. Adil İsgəndərovun kursunda təhsil almışıq. Ömrünün son anına kimi onunla dostluq etmişəm. O vaxt nə Elxan Qasımov tanınırdı, nə də Hamlet Xanızadə. Amma Hamlet Xanızadə o vaxt Adil İsgəndərovun kinostudiyanın ("Azərbaycanfilm" kinostudiyası) nəzdində təşkil etdiyi aktyorluq kursuna gedirdi. Aktyorluğa və kinoya çox böyük həvəsi var idi.

Teatr İnstitutunda təhsil alan Hamlet Xanızadə 1961-ci ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında işə başlayıb. Bu möhtəşəm səhnədə ilk günlərdən korifey sənətkarlardan öyrənə-öyrənə sayılıb-seçilən aktyorlardan olub. O illərdən bəri onun rollarının sırasına nəzər salanda heyrətlənməyə bilmirsən. Son dərəcə fərqli və ziddiyyətli surətləri bir aktyor öz ruhundan, varlığından keçirərək necə ustalıqla yarada bilmişdi: Həsən Səbbah ("Xəyyam"), İblis ("İblis"), Qacar ("Vaqif"), Antonino ("Fırtına") və başqaları. Diqqət yetirsək görərik ki, Hamlet Xanızadə bir çox müəlliflərin əsərlərində özünü peşəkar aktyor kimi təsdiq etmişdir. İlk növbədə sənətkarlıq qüdrətini ürəyindən xəbər verən, çox sevdiyi Hüseyn Cavid, Mirzə Cəlil, Şekspir, Nazim Hikmət, Səməd Vurğun, İlyas Əfəndiyev, Nəriman Həsənzadə, Anar, Yusif Səmədoğlu və digər bu kimi müəlliflərin əsərlərində təsdiqləyib. Hamlet Xanızadə Mehdi Məmmədov, Hökümə Qurbanova, Əliağa Ağayev, Ağasadıq Gəraybəyli, İsmayıl Osmanlı, İsmayıl Dağıstanlı kimi müqtədir sənət korifeyləri ilə bir yerdə çalışıb. Tanrının bağışladığı istedad və qabiliyyət öz yerində, Milli Dram Teatrı sözün həqiqi mənasında Hamlet Xanızadə üçün bir məktəb olmuşdu. O, ustadlardan öyrənərək həm də öz məktəbini yaradırdı.

Unudulmaz aktyorun yaradıcılığında teatr aktyorluğu ilə yanaşı, kino sahəsindəki xidmətləri də dəyərli və diqqətçəkəndir. "Yeddi oğul istərəm", "Axırıncı aşırım", "Arxadan vurulan zərbə", "Şəhərin yay günləri", "Qızıl uçurum", "Babək", "Bir cənub şəhərində", "İnsan məskən salır", "İstintaq davam edir", "Qatarda", "Qatır Məmməd", "Qəm pəncərəsi", "Qərib cinlər diyarında", "Möcüzələr adası", "Nizami", "Topal Teymur", "Yaramaz", "Yol əhvalatı"... və nəhayət, "Qətl günü" filmlərində yaratdığı müxtəlif xarakterli obrazlarda yenə də Hamlet Xanızadənin özünəməxsus orijinal yozumu hiss olunmaqdadır. O, bu obrazları elə bir şəkildə təqdim edib ki, ikinci bir ifaçı haqqında düşünmək ağla gəlmir.

"Qətl günü" filmindəki Sədi Əfəndi onun son rolu olmuşdu. Həyat yoldaşı Nailə xanımın sözlərindən: "Çəkilişlər zamanı, bəlkə də gündə neçə yol ölüb-dirilirdi. Filmdəki dövrlə bağlı ədəbiyyatı oxuduqca öz-özünə deyirdi: "Gör biz necə böyük bir millətin övladlarıyıq". Təəssüf ki, bizim milli taleyimizin əks-sədası olan bu filmə Hamletsiz baxdıq".

Həyatın amansızlığı imkan vermədi ki, Hamlet Xanızadə yaratdığı obrazın tamaşaçılar tərəfindən necə maraqla qarşılandığının şahidi olsun.

İstər teatrda, istər kinoda hansı rolda çəkilməsindən asılı olmayaraq aktyor oynadığı rolun məsuliyyətini gözəl dərk edirdi. Olduqca səmimi, işgüzar insan idi, rejissorlarla çox asan dil tapırdı. Onu tanıyanlar deyirdilər ki, Hamlet heç vaxt insanların qəlbinə toxunmaz. Rolları isə nədənsə əksinə, qəddar, zalım, qaniçən insanlar olurdu.

Hamlet Xanızadə güclü yaradıcı potensiala malik aktyor idi. Onun zəngin daxili aləmi müxtəlif xarakterli rolları yaratmağa imkan verirdi. Əməkdar artist idi. Xalq onu sevirdi. Mükafatı isə dövlət təltifləri və xalqın ürəyində qazandığı məhəbbət idi. Bu məhəbbət bu gün də var, sabah da olacaq. Cəmi 49 il ömür sürmüş Hamlet Xanızadə 80-ə yaxın filmdə unudulmayan, bir-birinə bənzəməyən, maraqlı obrazlar yaradıb. Onun qəhrəmanlarının əksəriyyəti tarixin, özü isə sənətin zirvəsində əbədiləşib!

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

● Xəbərlər

## "Teymur Əhmədov" biblioqrafiyası nəşr olunub



**M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın tədqiqatçı alimləri" seriyasından tərtib etdiyi növbəti biblioqrafiya görkəmli ədəbiyyatşünas alim, publisist, filologiya elmləri doktoru, professor Teymur Əhmədovun anadan olmasının 90 illiyinə həsr edilib.**

1957-2021-ci illəri əhatə edən bu biblioqrafiya daha da təkmilləşdirilib, yeni bölmələr və yarımbölmələr əlavə edilib. Azərbaycan, rus və digər dillərdə ədəbiyyatı əhatə edən göstəricidə Teymur Əhmədovun əsərləri - kitabları, dövri mətbuatda, məcmuələrdə çap olunmuş əsərləri, habelə həyat və yaradıcılığını əks etdirən zəngin material toplanıb.

İlk dəfə olaraq "Teymur Əhmədov dünya kitabxanalarında" və "Teymur Əhmədov dünya universitet kitabxanalarında" bölmələri də hazırlanaraq biblioqrafiyaya daxil edilib. Biblioqrafik göstəricidə materiallar xronoloji prinsip əsasında qruplaşdırılmış, daxildə əlifba sırası gözlənilib.

Kitabda "Teymur Əhmədovun həyat və yaradıcılığının əsas tarixləri", "Teymur Əhmədov yaradıcılığından seçmələr", "Görkəmli şəxsiyyətlər Teymur Əhmədov haqqında" bölmələri də öz əksini tapıb.

## Üç bədii tammetrajlı film istehsal prosesindədir



**Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında 3 bədii tammetrajlı film istehsal prosesindədir.**

Rejissor Elçin Musaoğlunun "Məryəm" filminin çəkilişlərinə may ayından başlanılıb. Hazırda Zaqatala-Balakən bölgəsində son çəkilişlər gedir. Ekran əsərinin ilin sonunda tamaşaçılara təqdim olunması nəzərdə tutulub.

Dram janrında olan filmin süjet xətti ölmüş bildiyi atasını görmək üçün uzun illər sonra Azərbaycana gələn və onu ucqar rayonda yerləşən ruhi-əsəb xəstəxanasında tapan Məryəm adlı qızdan bəhs edir.

Kinorejissor Vaqif Mustafayevin İkinci Qarabağ müharibəsinə həsr olunmuş "Fəryad 2" filmi ilə bağlı hazırlıq işlərinə başlanılıb. Filmin məkan çəkilişlərinə hazırlıq məqsədilə Hadrut və Bakı şəhərində dekorasiyalar qurulur. İyulun 15-dən sonra çəkilişlər başlanacaq.

Asif Rüstəmovun "Mərmər soyuğu" adlı filmi isə fransalı şirkətlə birgə lentə alınacaq.

***"Azərbaycan"***






# Çempionluq görüşü: İtaliya-İngiltərə



Əvvəli 1-ci səh.

"Avro-2020"də 5 matçdan 4-nü Londonda oynayan İngiltərə millisi üçün yarımfinal və final qarşılaşmalarının da "Uembli" stadionunda keçirilməsini əlavə üstünlük saya bilərik. Amma təbii ki, bəzi məqamlarda doğma meydan amili qələbəyə zəmanət vermir. Məsələn, ingilislər 9 ay əvvəl burada penaltidən buraxdıqları qol ucbatından danimarkalılara məğlub olmuşlar.

Danimarka millisi də 1992-ci ildə Avropa çempionu olduqdan sonra ən yüksək nailiyyətə imza ataraq böyük turnirlərdə yarımfinala çıxa bilmişdi. Skandinaviya təmsilçisinin "Avro-2020"də ən texnikalı komandalarından biri olması, həmçinin 7 futbolçusunun İngiltərə çempionatında çıxış etməsi maraqlı məqamlardan idi.

İyulun 7-də keçirilən yarımfinal matçında diqqətlər danimarkalı Kasper Dolberq, ingilislər Harri Keyn və Rahem Sterlinqin üzərində oldu. Bu matça kimi hərəyə 3 dəfə fərqlənən futbolçular 5 qolla bombardirlər siyahısına başçılıq edən portuqaliyalı Kristianu Ronaldu və çexiyalı Patrik Şikə çatmağa çalışacaqdılar.

Qarşılaşmaya İngiltərə topa sahib olaraq başladı, Danimarka isə oyunu meydançanın özlərinə aid hissəsində qəbul edərək ani əks-hücumlarda qol epizodu yaratmaq istəyirdi. Hər iki komanda ilk dəqiqələrdən kəşfiyyat xarakterli oyun seçərək bir-birilərinin səhvlərindən yararlanmağa çalışırdı.

Matçda sürət yüksək idi. "Avro-2020"də 5 oyun qol buraxmayan İngiltərə seçməsinin bu seriyasına danimarkalıların heyətində 20 yaşlı Mikkel Damsqaard son qoydu. 30-cu dəqiqədə 22 metrlik məsafədən cərimə zərbəsini dəqiq yerinə yetirən skandinaviyalı komandasını hesabda irəli çıxardı.

Buraxılan qoldan sonra qısa müddət şok yaşayan ingilislər azarkeşlərin dəstəyindən istifadə edərək hücumda kəsərlərini daha da artırdılar. Onu da vurğulayaq ki, İngiltərinin hücumçusu Harri Keyn topsuz oyunlarda daha fəal iştirak idi. Onun hücum xəttində hərəkətli olması Danimarkanın müdafiə xəttinə problemlər yaşadırdı. Belə ki, mərkəz müdafiəçilərinin tez-tez irəli çıxması arxada boşluqlara səbəb olurdu. Bu boş zonalardan isə Sterlinq və Saka faydalanırdı. Belə epizodlardan birində - 39-cu dəqiqədə ingilislər hesabı bərabərləşdirdilər. Keynin müdafiənin arxasına atdığı topu Saka cərimə meydançasında Sterlinqə ötürmək istədi. Lakin Danimarkanın kapitanı Kyer topu uzaqlaşdırmaq istəyərkən onu öz qapısına göndərdi - 1:1.

Fasilədən sonra qarşılaşma qarşılıqlı hücumlar şəraitində keçdi. Danimarkalılar daha çox meydançanın özlərinə aid hissəsində yer almaqla yaranan boş zonalarda sürətli əks-hücum taktikası seçdilər. Lakin hər iki tərəfin bütün cəhdlərinə baxmayaraq əsas vaxtda hesab dəyişmədi.

Əlavə vaxtda İngiltərə yığmasının texniki heyəti oyun planında dəyişikliklərə getdi. Hücuma bəzi epizodlarda 7 futbolçu ilə qoşulan komanda 104-cü dəqiqədə istəyinə çatdı. Daha çox cinahdan qurulan hücumlara üstünlük verən ingilislər rəqibini fiziki cəhətdən çox yordular və belə epizodların birində Sterlinqə qarşı edilən kobudluğa görə hakim penalti nöqtəsini göstərdi. Qapıçı Kasper Şmeyxel ilk zərbəni dəf etsə də, Harri Keyn təkrar zərbə ilə komandasını hesabda irəli çıxartdı - 2:1.

Qalan dəqiqələrdə qol olmadı və yekunda qalib gələn İngiltərə millisi tarixində ilk dəfə Avropa çempionatının finalına yüksəldi. İngilislər həlledici mərhələdə iyulun 11-də Londonda İtaliya kollektivi ilə üz-üzə gələcək.

Necə deyərlər, haqq edən qalib gəlsin. Finala layiq qarşılaşma olsun.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## UEFA Çempionlar Liqası, 1-ci təsnifat mərhələsi



# "Neftçi" qələbə ilə başladı



Futbol üzrə Azərbaycan çempionu "Neftçi" (Bakı) Avropa Çempionlar Liqasının birinci təsnifat mərhələsinin ilk matçında Gürcüstan təmsilçisi "Dinamo" (Tbilisi) ilə qarşılaşmışdır.

Tbilisidəki "Boris Payçadze" stadionunda keçirilən qarşılaşmanı israilli baş hakim David Fuksman idarə etmişdir. İlk dəqiqələrdən həyəcanlı görünən "Neftçi"nin futbolçuları tez-tez ötürülmələrdə səhv edirdi. Bu səbəbdən rəqib bakılıların qapısı qarşısında bir neçə təhlükəli vəziyyət yarada bilmişdir. Lakin 23-cü dəqiqədə Namiq Ələsgərov fərdi ustalıq nümayiş etdirərək oyunda hesabı açmışdır. Bundan sonra gürcülər bir az da təzyiqi artırmışdır. Qapıçımız Aqil Məmmədov bir neçə dəfə komandanı qoldan xilas etmişdir. Ancaq 36-cı dəqiqədə "Dinamo"nun hücumçusu Zoran Maruşiç güclü zərbə ilə hesabı bərabərləşdirmişdir - 1:1. Birinci hissə bu hesabla başa çatmışdır. İkinci hissədə "Neftçi" oyunda tarazlıq yaratmağa müvəffəq olmuşdur. 57-ci dəqiqədə meydan sahiblərinin qapısına 11 metrlik cərimə zərbəsi təyin edilmişdir və kapitan Emin Mahmudov bu şansı qaçırmamışdır. Hər iki komandanın cəhdlərinə baxmayaraq, bundan sonra hesab dəyişməmişdir və "Neftçi" Çempionlar Liqasına 2:1 hesablı qələbə ilə başlamışdır. Komandalar arasında cavab görüşü iyulun 14-də Bakıda keçiriləcək. Qarşıdurmanın qalibi ikinci təsnifat mərhələsində Yunanıstanın "Olimpiakos" klubu ilə görüşəcək.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# «Bir oyunumuz qalıb və onu səbirsizliklə gözləyirik»



İngiltərə millisinin futbolçusu Harri Keyn "Avro-2020"nin yarımfinalında Danimarkaya 2:1 hesabı ilə qalib gəldikləri oyunu şərh edib.

O, komandasının buraxılan ilk qola yaxşı reaksiya verdiyini bildirib: "İnanılmaz oyun idi. Bunun üçün Danimarkaya yalnız təşəkkür edə bilərəm. Hücum etməyə çalışdıq və matçın ən vacib məqamında hədəfimizə çatdıq. İngiltərə buraxılan qola yaxşı reaksiya göstərdi. Finalı öz stadionumuzda oynayacağıq. Bu, heyrətamiz hissdir".

27 yaşlı hücumçu yerinə yetirdiyi penalti haqda da danışıb: "Penaltini vuranda topu hara yönləndirəcəyimi əvvəlcədən bilirdim. Deyə bilərəm ki, bu mənim həyatımda ən yaxşı zərbə deyildi, amma bəzən insan yanılır. Təəssüf ki, məhz belə oldu".

Keyn finalda qarşılaşacaqları İtaliya ilə matç barədə isə bunları deyib: "İtaliya ilə qarşılaşma çətin olacaq, amma bu günə qədər turnirdə çox yaxşıyıq. Bir oyunumuz qalıb və onu səbirsizliklə gözləyirik".

# Morata penaltini vurarkən zədəli imiş

İspaniya millisinin baş məşqçisi Luis Enrike futbolçusu Alvaro Moratanın İtaliyaya qarşı "Avro-2020"nin yarımfinalındakı oyununu şərh edib.

Morata matçın əsas vaxtında komandasının bərabərlik qolunu vurub. Penaltilər seriyasında isə o, zərbəni dəqiq yerinə yetirə bilməyib. Yekun nəticədə ispanlar uduzaraq (1:1, penaltilər seriyasında 2:4) mübarizəni dayandırıb.

Bununla bağlı Luis Enrike deyib: "Əgər mən futbolçularıma qiymət vermək istəyirəmsə, biz əla idik. Hamısı möhtəşəm oynadı. İndi onlara istirahət lazımdır. Morataya gəlincə, onun əzələ ağrısı vardı. Penaltini vuranda da zədəli idi. Buna baxmayaraq, o, 11 metrlik zərbəni vurmaq istədi. Bu faktın özü Moratanın insani keyfiyyəti barədə çox söz deyir. Alvaro bu turnirdə bizə titanik əhəmiyyətə malik oyunçu idi".

# Ata Şmeyxeldən hakimə irad



Danimarka millisinin sabiq qapıçısı Peter Şmeyxel "Avro-2020"nin yarımfinalında İngiltərə ilə matçda baş hakim Danni Makkelinin Danimarkanın qapısına təyin etdiyi penaltidən danışıb.

O, rəqibin oyunçusu Rahim Sterlinqin cərimə meydançasında yıxılmasına baxmayaraq, referinin qərarının düzgün olmadığını bildirib: "Bu, böyük səhvdir. Mübahisələr çox uzun müddət davam edəcək. Ancaq burada penalti epizodu yox idi. İngiltərə çox təhlükəli anlarından birində qol vursaydı, məğlubiyyəti daha sakit qəbul edərdim. Ancaq təəssüf ki, hakim böyük səhvə yol verdi. Bu mövzuda ümumi fikri bilirəm. Bu məsələ ilə bağlı telefonuma çoxlu mesaj gəlib. Həmin epizodda penalti olmadığını yazıblar. Hər halda Danimarka millisi ilə qürur duyuruq".

Əlavə edək ki, Kasper Şmeyxel Danimarka millisinin sabiq qapıçısı Peter Şmeyxelin oğludur.

# Hyulmand komandası ilə qürur duyur



"Əlbəttə ki, finalın bir addımlığında mübarizəni dayandırdığımız üçün çox məyus olduq. Ancaq matç zamanı müxtəlif vəziyyətlər qələbə qazanmağımıza mane oldu".

Bu sözləri Danimarka millisinin baş məşqçisi Kasper Hyulmand "Avro-2020"nin yarımfinalında İngiltərəyə uduzduqları görüşdən sonra deyib. O, futbolçularının inanılmaz iş gördüyünü vurğulayıb: "Lakin rəqib çox güclü idi. Gözəl futbol oynayırdılar. Biz də hücum etdik, qol vurduq və əsl gücümüzü göstərdik. Futbolçular həm meydanda, həm də meydandan kənarda əllərindən gələni etdilər. Çiyin-çiyinə dayandıq, sona qədər mübarizə apardıq. İndi isə çox məyusuq. Ancaq düşünürəm ki, tezliklə kənardan baxıb deyəcəyik: "Biz bunu sınadıq və yenidən bacara biləcəyimizə əminik".

# "Finala çıxmışıq ki, qalib gələk"



İngiltərə millisinin baş məşqçisi Qaret Sautqeyt "Avro-2020"nin yarımfinalında Danimarkaya qalib gələrək finala yüksəldikləri matçdan sonra fikirlərini bildirib.

50 yaşlı mütəxəssis deyib ki, indi hiss etdiyi duyğuları sözlə izah etmək çətindir: "Çox gərgin oyun olacağını bilirdim, amma sona qədər vəzifəmizi yerinə yetirəcəyimizə inanırdım. Danimarkanın böyük komanda olduğu heç kimə sirr deyil".

Sautqeyt yığmanın çıxışından razı qaldığını bildirib: "Komandamın oyunundan çox məmnunam və futbolçularımın nail olduğu ən vacib məqam rəqiblərin təzyiq etdiyi anlarda çaxnaşmaya düşməmələridir. Nəticə etibarilə ölkəmizdəki azarkeşlər bu gözəl axşamın sonunda sevindilər. Penalti epizodunu görmədim. Ona görə də bu epizodu qiymətləndirə bilmirəm. Mənə elə gəlir ki, hakimin qərarı düzgün idi".

İngiltərəli çalışdırıcı iyulun 11-də İtaliyaya qarşı keçirəcəkləri final görüşündən də danışıb: "Finala çıxmışıq ki, orada da qalib gələk. Yenidən hazırlaşacağıq. Finala qədər bərpa olunmalıyıq. Çünki son oyun çox çətin keçdi və çoxlu güc sərf etdik. İtaliya da çətinlik çəkdi. Amma onların hazırlaşmaq üçün əlavə bir günü var".

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələrinin fizika, kimya və biologiya kabinetləri üçün mobil rəqəmsal laboratoriya avadanlığı dəstlərinin satın alınması məqsədilə tender elan edir

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyən təşkilatlar 200 (iki yüz) manat məbləğdə heç bir halda geri qaytarılmayan iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər:

**Təşkilat: Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının peşəkarlığı və təcrübəsi barədə təsdiq edici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının 2020-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1)*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **02.08.2021-ci il saat 10:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **10.08.2021-ci il saat 10:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **11.08.2021-ci il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

Lənkəran Dövlət Universiteti tərəfindən 14 iyun 2021-ci il tarixdə www.etender.gov.az Portalında və 15 iyun 2021-ci il tarixli "Azərbaycan" qəzetində dərc olunmuş LDU-nun 2 saylı tədris korpusunun həyətində 5 mərtəbəli yeni tədris korpusunun tikintisi işləri üzrə açıq tenderdə (e.Tenderdə) tender təklifi vermiş iddiaçıların sayı üçdən az olduğu üçün "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin 11.1. bəndinə əsasən davamından imtina edilmişdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Hacıqabul Suvarma Sistemləri İdarəsi tərəfindən 09 mart 2021-ci il tarixdə elektron qaydada elan edilmiş "Qobu-1" torpaq kanalının (pk24+00-pk59+00) beton üzlüyə alınması və üzərindəki HTQ təmiri (işin davamı) işlərinin satın alınması" ilə bağlı açıq tenderin nəticəsinə uyğun olaraq qalib olmuş "AZƏRBAYCAN MELİORASİYA VƏ SU TƏSƏRRÜFATI AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN SUMQAYIT MELİOSERVİS İDARƏSİ" MMC ilə 05 iyul 2021-ci il tarixdə müvafiq müqavilə bağlanılmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 17 iyun 2021-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalında **(https://www.etender.gov.az)** Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmada (etender) Müxtəlif rüsum və ödənclərlə bağlı (Gömrük) xidmətlərin satın alınması üçün qeydiyyatdan keçmiş iddiaçıların sayı səmərəli rəqabəti təmin etmək üçün 3 (üç) iştirakçıdan az olduğundan "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 50-4.2-ci maddəsinə əsasən, bu LOT üzrə etender proseduru ləğv edilmişdir.

***Tender komissiyası***

# Xaçmaz rayonunda 7 ton çətənə kolu və 48 kiloqram marixuana qanunsuz dövriyyədən çıxarılıb

Daxili İşlər Nazirliyi (DİN) Xaçmaz rayonunda külli miqdarda narkotik tərkibli bitkinin və narkotik vasitənin qanunsuz dövriyyədən çıxarılması ilə bağlı məlumat yayıb.



DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olan şəxslərin aşkarlanaraq məsuliyyətə cəlb edilmələri istiqamətində növbəti əməliyyat həyata keçirilib. Baş İdarəyə Xaçmaz rayonunun Nabran qəsəbəsində külli miqdarda narkotik tərkibli bitkilərin kultivasiya edilməsi barədə əməliyyat məlumatı daxil olub. Dərhal məlumat nəzarətə götürülüb.

Baş İdarə əməkdaşlarının həyata keçirdikləri zəruri və təxirəsalınmaz əməliyyat tədbiri nəticəsində Nabran qəsəbəsində narkotik vasitələrin kultivasiyası ilə məşğul olan Xaçmaz rayon sakini Cavat Cavatov saxlanılıb. Onun yaşadığı evin həyətyanı sahəsinə baxış zamanı C.Cavatov tərəfindən kultivasiya edilən, yaş kütləsi 7 ton 765 kiloqram olan 5175 çətənə kolu və 48 kiloqram 220 qram marixuana aşkar edilib. Saxlanılan şəxs ifadəsində narkotik tərkibli bitkiləri bu ilin əvvəlində əkdiyini və xüsusi qulluq etdiyini bildirib.

Beləliklə, Baş İdarə əməkdaşlarının keçirdiyi sonuncu əməliyyat zamanı 7 tondan artıq kultivasiya edilən 5175 ədəd çətənə kolu və 48 kiloqram marixuana qanunsuz dövriyyədən çıxarılıb.

Faktla bağlı Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işi başlanıb. Saxlanılan şəxs tutularaq istintaqa cəlb olunub. Cinayət işi üzrə zəruri istintaq və əməliyyat tədbirləri davam etdirilir.


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*"Azərmətbuatyayımı" ASC (012) 440-46-94, (012) 441-19-91*
*"Azərpoçt" ASC (012) 598-49-55, (051) 225-02-13*
*"Qaya" firması (012) 566-77-80, (050) 214-40-53*
*"Kaspi" MMC (012) 432-39-55, (012) 510-82-24*
*"Region Press" MMC (055) 316-79-01, (050) 316-79-01*
*"Səma-M" MMC (012) 594-09-59*
*"Ziya" LTD (012) 497-76-96, (050) 306-77-22*
*"Pressinform" MMC (012) 598-49-52, (070) 340-01-00*
*"City press" MMC (055) 819-09-26*

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## Gəncə Dövlət Universiteti
## 2021-ci il üçün doktoranturaya və dissertanturaya fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə qəbul elan edir

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | Elmlər doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən: əyani | qiyabi | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən: əyani | qiyabi | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 1202.01 | Analiz və funksional analiz | 1 | 1 | | 1 | | | | |
| 1211.01 | Diferensial tənliklər | | | | 1 | | | | |
| 2303.01 | Qeyri-üzvi kimya | 1 | 1 | | 1 | | | | |
| 2306.01 | Üzvi kimya | 1 | 1 | | 1 | | | | |
| 2401,01 | Zoologiya | | | | 1 | | | | |
| 2426.01 | Ekologiya | 1 | 1 | | | | | | |
| 5308.01 | Ümumi iqtisadiyyat | 2 | 2 | | 2 | | | | |
| 5408.01 | Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası | | | | 2 | | | | |
| 5411.01 | Meteorologiya | | | | 1 | | | | |
| 5502.01 | Ümumi tarix | 1 | 1 | | 2 | | | | 1 |
| 5503.02 | Vətən tarixi | 1 | 1 | | 2 | | | | 1 |
| 5704.01 | Dil nəzəriyyəsi | 1 | 1 | | 1 | | | | |
| 5706.01 | Azərbaycan dili | 2 | 2 | | 2 | | | | 2 |
| 5714.01 | Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik | 1 | 1 | | 1 | | | | |
| 5716,01 | Azərbaycan ədəbiyyatı | 1 | | 1 | | | | | |
| 5718.01 | Dünya ədəbiyyatı | 1 | 1 | | 1 | | | | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası | 1 | 1 | | 2 | | | | 1 |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 1 | 1 | | 1 | | | | |
| 5908.01 | Siyasi nəzəriyyə | | | | 3 | | | | |
| 6107.01 | Ümumi psixologiya | 1 | 1 | | 1 | | | | |
| 6302,01 | Eksperimental psixologiya | | | | 1 | | | | |
| 7203,01 | Ümumi fəlsəfə | | | | 1 | | | | |
| | **Cəmi:** | 17 | 16 | 1 | 28 | | | | 5 |

Qəbul qaydaları haqqında məlumatı GDU-nun doktorantura və dissertantura şöbəsindən almaq olar. Yalnız xarici dil imtahanını müvəffəqiyyətlə vermiş şəxslər sənəd qəbulunda iştirak edə bilərlər. Əlavə olaraq bildirilir ki, doktoranturaya sənəd qəbulunun "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçirilməsi planlaşdırılır. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada "Ali və orta ixtisas təhsil müəssisələrinin tələbə qəbulu və qeydiyyatı" xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər. Təlimatlarla **www.gdu.edu.az** saytında tanış olmaq mümkündür. **Portal.edu.az** vasitəsilə müraciətlərin göndərilməsi cari il iyulun 1-i saat 09.00-dan etibarən mümkündür. Fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya sənəd qəbulunun son tarixi 15 iyul 2021-ci ildir (fəlsəfə fənni üzrə imtahan 2021-ci il sentyabrın 1-i, 2-si və 3-də, ixtisas imtahanı isə 2021-ci il sentyabrın 9-u və 10-da keçiriləcəkdir).

**Ünvan: AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429.**
**Tel: (+99222) 266-01-88 Elm və innovasiyalar**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədova atası

**SƏYYAD MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Tərtər Rayon İcra Hakimiyyətinin kollektivi icra hakimiyyətinin başçısı Müstəqim Məmmədova atası

**SƏYYAD MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi "Tibbi Ərazi bölmələrini İdarəetmə Birliyi" Publik Hüquqi Şəxs K.Y.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunun direktoru və institutun əməkdaşları iş yoldaşları Samirə Şıxseyidovaya anası

**ŞƏMSİYYƏ YARƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Göyçaydan Mehdi Səlimzadə Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədova bacısı

**MƏRYƏM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*
Tiraj 3945
Sifariş 1218
Qiyməti 40 qəpik